www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 iyun 2015-ci il Çərşənbə № 130 (6158) Qiyməti 40 qəpik

**Xəbər**

## Köçkün yataqxanasında dəhşətli qətl

yazısı səh.13-də

**Gündəm**

### Qarabağ məsələsində Rusiya amili önə keçir



Ancaq problem 20 il öncə harada idisə, hələ də oradadır; amerikalı keçmiş həmsədr nədən

yazısı səh.11-də

*Müsavatdan açıqlama:*

### "Avropa Oyunlarını boykot çağırışı etməmişik"

yazısı səh.9-da

### "AXCP təcili qurultay keçirəcək" - iddia

yazısı səh.7-də

### Rizvan Vahabovla bağlı növbəti ittiham

yazısı səh.10-da

### Qadınları fahişəliyə cəlb edən tanınmış prodüserin məhkəməsi başladı

yazısı səh.13-də

### Sabah orucluq başlayır

yazısı səh.15-də

### Nemət Pənahlının oğlu milli komandadan uzaqlaşdırılmasından danışdı

yazısı səh.3-də

### RATİ-nin işçiləri mühacirətə getməyi düşünmürlər

yazısı səh.4-də

### Problemli kreditlərin həcmi daha da artıb

yazısı səh.15-də

### Hüquq müdafiəçiləri əfv üçün müraciət hazırlayır

yazısı səh.3-də

### İki qardaşın qatilini cəzadan yayındırmaq istəyirlər

yazısı səh.13-də

### "Lider" qaçqını ingilis turist kimi danışdırdı, ara qarışdı

yazısı səh.4-də

## Avropa Birliyinin "üsyankar" səfirlə üzülüşməsinin şok səbəbi

# QOVULMUŞ DİPLOMATIN ARXASINDAN ABBAS ABBASOV ÇIXDI

Arif Məmmədovun postundan geri çağırılması Brüsselin rəsmi Bakıya jesti sayıla bilməz - buna səbəb məhz səfirin arxasındakı gücün üzə çıxması, bəlkə də ifşasıdır; Abbas Abbasovla dostluq əlaqələri olan sabiq diplomat Rüstəm İbrahimbəyovun imtina etdiyi posta - Milli Şura həmsədrliyinə gətirilə bilər...




yazısı səh.5-də

# AŞ PA-dan şok qərar: hakimlərimiz geri göndərildi

Avropa Məhkəməsinə Azərbaycandan hakimliyə irəli sürülən üç namizəd "kifayət qədər yaxşı təcrübəyə malik olmadığından" qəbul edilmədi, ortada başqa səbəblər də var

yazısı səh.8-də



### 22 il öncənin sirri: Elçibəy Kələkiyə getməsəydi...

yazısı səh.7-də



*Qubad İbadoğlu:*

### "Proqramımı başa çatdıran kimi vətənə dönəcəm"

yazısı səh.6-da



*Rauf Arifoğlu:*

### "Professorun pula tüpürməkliyi..."

yazısı səh.9-da



## BMT-nin Ali Komissarı siyasi məhbusları azad etməyə çağırıb

**Cenevrədə İnsan Hüquqları Şurasının 29-cu sessiyasında BMT Ali Komissarı Zeyd Raad əl-Hüseyn bir sıra postsovet ölkələrini QHT və vətəndaş fəallarının təqibinə son qoymağa çağırıb.**

BMT-nin Cenevrə ofisinin mətbuat xidmətindən "Turan"a verilən məlumata görə, Ali Komissar Rusiyanın xarici və beynəlxalq təşkilatlar haqqında yeni qanununu tənqidə məruz qoyub, Azərbaycanda siyasi məhbuslara dəstək ifadə edib və Mərkəzi Asiyanın bir sıra ölkələrinin QHT-lərə qarşı yönəlmiş qanun layihələrini pisləyib.

Rusiya Federasiyası haqqında danışan Ali Komissar qeyd edib ki, "129-F3 saylı yeni federal qanun" hakimiyyətin xarici və beynəlxalq təşkilatları "arzuolunmaz" elan etməsinə və konstitusiya quruluşu, dövlət təhlükəsizliyi və ya müdafiə üçün təhlükə yaratmasına əsaslanaraq onları bağlamasına imkan verəcək.

Bir sıra Mərkəzi Asiya ölkələrində, o cümlədən Qazaxıstan, Qırğızıstan və Tacikistanda hazırda xaricdən maliyyə alan qeyri-hökumət təşkilatları ilə bağlı qanunvericilik layihələri hazırlanır. "Bu qanunlar qəbul edilsə, bu, demokratik azadlıqların daha da məhdudlaşdırılmasına gətirib çıxaracaq", deyə Zeyd Raad əl-Hüseyn qeyd edib.

Azərbaycandakı vəziyyətə toxunan komissar bildirib ki, ədalətli məhkəmə hüququnun pozulması və vicdan məhbuslarının məhkəməöncəsi uzun müddət həbsdə saxlanılması haqqında məlumatlardan narahatdır.

"Mən hakimiyyəti humanitar nöqteyi-nəzərdən səhhətində problem olanları azad etməyə, həmçinin yalnız öz hüquqlarını həyata keçirdiyinə görə azadlıqdan məhrum edilmiş şəxsləri əvf etməyə və onlara qarşı ittihamları ləğv etməyə çağırıram", deyə Ali Komissar bildirib.

❑ **"Turan"**

## Sərkisyan Moskvaya toya gedibmiş



**Ermənistan prezidenti Serj Sərkisyan ötən şənbə günü, iyunun 13-də Moskvaya özəl səfərə gedib. Bu barədə erməni qəzeti "Qraparak" yazır. Səfər ictimaiyyətdən gizli saxlanılıb.**

Bundan əvvəl isə məlum olub ki, parlamentin spikeri Ovik Abramyan da Moskvada özəl səfərdə olub. Onun məşhur erməni oliqarx Kamo Avaqumyanın oğlunun toyunda iştirak etdiyi təxmin edilir.

Avaqumyan "Mercedes" avtomobillərinin Rusiyaya idxalçısıdır. Həmçinin Ermənistan Baş Prokurorluğunun Rusiyadakı nümayəndəsidir.

Toyda Ermənistandan və Rusiyadan əksər erməni oliqarxlar iştirak ediblər.

Ovik Abramyan Moskvaya Sərkisyandan iki gün əvvəl gedib və bazar günü onun təyyarəsində İrəvana qayıdıb. Onların Rusiyada erməni milyarder Samvel Karapetyanın dəstəyi ilə bir sıra işgüzar görüşlər keçirdiyi bildirilir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Emin Hüseynovu Azərbaycandan gizli yolla çıxarıblar"

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini, deputat Siyavuş Novruzov Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) rəhbəri, uzun müddət İsveçrənin Azərbaycandakı səfirliyində saxlanılan Emin Hüseynovun ölkədən çıxarılmasına münasibət bildirib.**



S.Novruzov "Report"a açıqlamasında deyib ki, Emin Hüseynovu Azərbaycandan gizli yolla aparıblar və onun ölkədən bu cür çıxarılması qanunsuzluqdur.

**YAP icra katibinin müavini qeyd edib ki, RATİ rəhbəri Azərbaycandakı fəaliyyəti ilə bağlı qanun qarşısında cavab verməlidir:** "İsveçrənin Azərbaycandakı səfirliyi Emin Hüseynovu uzun müddət gizlətdi. Ona verilən 1 milyon 500 min manat qrantın 160 min manatını vergiyə ödənilməli idi. Vergidən yayınma ağır cinayət hesab olunur. Bu maliyyənin bir hissəsini onu verən təşkilat mənimsəyib, müəyyən hissəsi də təyinatdan kənar, başqa istiqamətlərə-dövlət əleyhinə işlərin aparılmasına, kütləvi ixtişaşlara insanların cəlb edilməsinə xərclənib. Bu şəxsin izini itirməkdən ötrü neytral bir ölkənin-İsveçrənin səfirliyində saxladılar, sonra gizli yolla ölkədən apardılar. Emin Hüseynov siyasi baxışlarına görə təqib olunurdusa, İsveçrə ona siyasi sığınacaq verə bilərdi. Amma iqtisadi cinayət törədən şəxs səfirliyin binasında saxlanılırdısa, deməli, burada maraq başqa idi".

Qeyd edək ki, RATİ rəhbəri Emin Hüseynov bir neçə gün öncə saxlanıldığı İsveçrənin Azərbaycandakı səfirliyinin binasından çıxarılıb və o, İsveçrə xarici işlər naziri Didye Burkhalterin təyyarəsi ilə ölkədən aparılıb.

## Rusiya millisinin baş məşqçisi istefaya göndərildi

**Rusiya milli komandasının 68 yaşlı italiyalı baş məşqçisi Fabio Kapello istefaya göndərilib. Modern.az-ın xarici KİV-ə istinadən verdiyi xəbərə görə, Rusiya Futbol Federasiyasının prezidenti səlahiyyətlərini icra edən Nikita Simonyan bunu elan edəcək. İtaliyalı baş məşqçi bu postda 2 il 11 ay işləyib.**

Məlumatda qeyd edilir ki, indi əsas məsələ Fabio Kapellonun müqaviləsinin pozulması ilə bağlıdır. 2014-cü ilin yanvar ayında əldə olunan razılaşmaya görə, istefaya göndəriləcəyi təqdirdə təxminən 20 milyon avro kompensasiya ödənməlidir.Kapello 2014-cü il yanvarın 24-dən iyulun 25-dək 4,5 milyon avrodan çox məvacib alıb. Ötən il iyulun sonundan 2015-ci ilin iyun ayınadək olan əmək haqqı isə 6,4 milyon avro edir. Kapello Rusiya millisinə 2012-ci il iyulun 26-dan rəhbərlik edir. Onun baş məşqçi olduğu müddətdə Rusiya 12 illik fasilədən sonra dünya çempionatının final mərhələsinə vəsiqə qazanıb. Braziliyada keçirilən dünya çempionatında Rusiya uğursuz çıxış edib. Rusiya millisi Belçika və Əlcəzairin də olduğu qrupdan növbəti mərhələyə çıxa bilməyib. 2016-cı ildə keçiriləcək Avropa çempionatının qrup mərhələsinin oyunlarında da Rusiya millisi uğurlu çıxış etmir. Altı oyundan sonra 3-cü yeri tutur. Hazırda Rusiya millisi qrupun lideri Avstriyadan 8, ikinci yerdəki İsveçdən 4 xal geri qalır.

## Şamaxı Rəsədxanası: "Təhlükə yoxdur..."



**""İkar" asteroidinin Yer kürəsinə yaxınlaşmasının və keçib getməsinin heç bir təhlükəsi yoxdur, narahat olmağa dəyməz". Bunu APA-ya açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) N. Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının aparıcı elmi işçisi, fizika üzrə fəlsəfə doktoru Ədalət Ətai deyib.**

Onun sözlərinə görə, "İkar" kiçik cisimlərdən hesab olunur, onlar az müşahidə olunurlar: "Dünən də Yer kürəsindən 26 mln. km məsafədə kiçik cisimlərdən biri keçib. Məsafə o qədər böyükdür ki, onun Yerə yaxınlaşması mümkün deyil. "İkar"ın diametri 1 kilometrə, kütləsi isə 100 min tona yaxındır. Onun yerlə məsafəsi Ayla Yer arasındakı məsafədən 21 dəfə çoxdur. Təqribən 10 milyon kilometr aralıdan keçib gedəcək. Ona görə də narahat olmağa dəyməz".

**Ə. Atai əlavə edib ki, NASA bu il doqquz yad cismin Yer ətrafından keçib gedəcəyi haqqında məlumat yayıb:** "Həmin cisimlər indi növbə ilə keçib gedir. Asteroidlərin Yerə təhlükəsi ilə bağlı yayılan xəbərlər şayiedir. Kosmik raketlərə külli miqdarda vəsait ayrılmasının səbəbi odur ki, asteroidlərin yerə yaxınlaşdığı məqamda təhlükə olarsa, onları zərərsizləşdirsinlər".

Qeyd edək ki, bu gün "İkar" asteroidi Yer kürəsinə çox yaxınlaşacaq.

"İkar" Yer kürəsinə hər 9, 19 və 38 ildən bir yaxınlaşır. Növbəti yaxınlaşma 2090-cı ilin 14 iyun tarixində baş verəcək. Həmin vaxt Yer kürəsi ilə asteroid arasındakı məsafə 6,5 mln. km təşkil edəcək.

## Ölümcül virus Avropaya çatdı

**Avropada MERS koronovirusuna yoluxmuş ilk pasiyent Almaniyada ölüb. Virtualaz.org saytı xəbər verir ki, "Augsburger-Allgemeine" qəzeti 65 yaşlı kişinin Aşağı Saksoniya əyalətindəki xəstəxanaların birində öldüyünü yazır.**

Onun ölümü bir neçə gün gizli saxlanılıb. Almaniya vətəndaşı olan həmin pasiyent bu ilin fevralında Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabiyə səfər zamanı MERS virusuna yoluxub. Həkimlər onun həyatı uğrunda mübarizə aparsalar da pasiyentin vəziyyəti ağırlaşıb və müalicə kömək etməyib.

MERS koronovirusu hazırda Cənubi Koreyada sürətlə yayılır. Bu ölkədə 19 nəfər virusdan ölüb, 160-a yaxını yoluxub. Minlərlə adam virusa yoluxmaq riski qarşısında karantində saxlanılır. 2 mindən çox məktəb, 20-dən çox universitet bağlanıb.

Ümumdünya Səhiyyə Təşkilatı xəbərdarlıq edir ki, virus böyük və ciddi təhlükə təşkil edir, yeni yoluxma halları olacaq.

"Rosturizm" isə artıq Rusiya vətəndaşlarına Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirliklərinə səyahətdən çəkinmək barədə xəbərdarlıq edilib.

MERS virusu ilk dəfə Səudiyyə Ərəbistanında qeydə alınıb. Bu ilin əvvəllərində isə Cənubi Koreyadan olan biznesmen həmin ölkədə virusa yoluxaraq onu öz vətəninə yayıb. MERS koronovirusunun əlamətləri adi sətəlcəmin əlamətlərini xatırladır, xəstənin yuxarı tənəffüs orqanlarında güclü iltihab başlayır və heç bir antibiotik, virus əleyhinə preparatlar ona təsir etmir.

## Turistlər gəldi, kirayə evlər bahalaşdı

**İyunun ilk yarısında kirayə mənzil bazarında qısa müddətə təklif edilən evlərin qiymətində artım lar müşahidə edilib.**

Bu barədə İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM) məlumat yayıb.

Mərkəzin monitorinqləri zamanı bəlli olub ki, I Avropa Oyunlarının keçirilməsi ilə bağlı paytaxtın 1-ci və 2-ci zonalarındakı kirayə bazarında tələb yüksəlib. Qiymət artımları da məhz qısamüddətli dövrdə, xüsusən də 1 ay müddətinədək təklif edilən kirayə evlərdə müşahidə edilib.

Bəlli olub ki, oyunları izləmək üçün ölkəmizə gələn turistlərin bir qismi öz pullarına qənaət etmək və daha uzun müddət Azərbaycanda qalmaq üçün üçün hotellərdə yox, evlərdə yaşamağa üstünlük verib.

Mərkəzin məlumatında qeyd edilir ki, paytaxtdakı hotellərin əksəriyyətinin 4 və ya 5 ulduzlu olması qiymətlərə təsir edib: "Buna görə də "budget hotellər"in sayı az olduğu üçün turistlərin bir qismi evlərə üz tutur. Təəssüf ki, kirayə ev sahibləri, xüsusən də mənzil alqı-satqısı ilə məşğul olan ofislər kirayə evlərin qiymətini süni şəkildə yüksəldiblər".

İSİM-in monitorinqləri göstərir ki, şəhərin mərkəzində bəzi mənzillərin bir aylıq kirayə haqları hətta 3 min manatadək artırılıb. Baxmayaraq ki, həmin mənzillər ötən ay 1000-1500 manata təklif edilirdi. Bu isə evlərin kirayəyə verilməsi ilə məşğul olan adamların ölkəmizə gələn turistlərin sayının artmasından süni şəkildə qazanc əldə etmək istəyi ilə bağlıdır.

## Putin yeni silahlarla hədələyir

**Rusiya prezidenti Vladimir Putin bu il ordunun 40-dan çox yeni qitələrarası ballistik raketlərlə təchiz ediləcəyini deyib.**

O, bunu iyunun 16-da "Ordu-2015" adlı hərbi sərginin açılışında deyib. Putin həmçinin ordunun ARMATA tankları və zirehli texnikalar da daxil olmaqla, bir sıra yeni silahlarla təchiz ediləcəyini bildirib.

Bundan başqa, Putin yaxın vaxtlarda strateji qərb zonasını müşahidə eləmək üçün yeni uzaq radiuslu radar qurğusunun sınaqdan keçiriləcəyini vurğulayıb.

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Hüquq müdafiəçiləri əfv üçün müraciət hazırlayır

## Onlar Avropa Oyunları müddətində əfv istəyirlər...

**Sonuncu ümidsiz əfv fərmanından sonra hüquq müdafiəçiləri növbəti əfvlə bağlı ümidverici açıqlamalar versələr də, nəticə ürəkaçan deyil. Nə 28 may, nə də 15 iyun ərəfəsində gözlənildiyinin əksinə olaraq, əfv fərmanı verilmədi. Əksər hüquq müdafiəçiləri əfv fərmanının verilməməsindən narahatdırlar.**



Həmçinin onlar siyasi məhbusların da azadlıq siyahısında olduğu əfv üçün çalışırlar. Hüquq müdafiəçiləri Bakıda keçirilən Birinci Avropa Oyunları ərəfəsində əfv verilməsi üçün müraciət hazırlayırlar.

**İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü Novella Cəfəroğlu** məsələ ilə bağlı bildirib ki, əfv verilməməsi hüquq müdafiəçilərinin narahatlıq və məyusluğuna səbəb olub: “Daha ümidverici açıqlama verməyə halım qalmayıb. Gözləyirik. Biz də əfv olacağına ümid edirik. İndi Avropa Oyunları olduğuna görə, düşünürük ki, bundan sonra əfv verilə bilər. İndi baş qarışıqdır. Baxaq görək... Biz öz işimizin hamısını etmişik. Bundan sonra ediləcək iş ancaq prezident İlham Əliyevin səlahiyyətindədir”. O qeyd edib ki, Əfv Komissiyasına göndərdikləri siyahıda bütün siyasi məhbusların adı var.

**Hüquq müdafiəçisi Arzu Abdullayeva isə qeyd edib ki, əfvlə bağlı nikbin deyil:** “Hələ ki bilmirəm nə zaman fərman verilə bilər. Biz İşçi Qrupa daxil olan hüquq müdafiəçiləri yığışıb müzakirə aparmışıq. Dövlət başçısına əfvlə bağlı təcili müraciət etmək istəyirik. İstəyirik ki, bu oyunlar ərəfəsində, ölkədə bu cür ab-hava olan zamanda əfv olsun. Heç olmasa, cəmiyyətdə əlavə müsbət bir əhval-ruhiyyə əmələ gəlsin. Artıq hüquq müdafiəçiləri bunu müzakirə etmişik və müraciət hazırlayırıq”.

**Qeyd edək ki, İşçi Qrupa daxil olan hüquq müdafiəçilərindən Sahib Məmmədovun siyasi məhbuslarla bağlı yanaşması bugünlərdə ciddi müzakirə doğurub. Belə ki, onun adı Avropa Oyunlarına dəstək verən 77 təşkilatın sırasındadır. Bəyanat verənlər isə siyasi məhbusları cinayətkar hesab etdiklərini vurğulayıblar. Sahib Məmmədovun bu cür fikirlərin əksini tapdığı bəyanata imza atması həmkarları tərəfindən birmənalı qarşılanmayıb. Novella Cəfəroğlunun sözlərinə görə, dedikləri S.Məmmədovun öz fikridir və İşçi Qrupunun mövqeyini əks etdirmir:** “Bu, Sahib Məmmədovun öz fikridir. Ancaq o, siyasi məhbusları çox gözəl də müdafiə edir. Orada o cür deməyinə baxmayın. Həmişə çıxış edəndə deyir ki, onlar bizim həmkarlarımızdır və azadlığa buraxılmalıdırlar”.

**Arzu Abdullayeva isə qeyd edib ki, S.Məmmədovun dedikləri ilə razı deyil və hüquq müdafiəçisinin bu cür fikir səsləndirməsi, yumşaq şəkildə desək, arzuolunan deyil:** “Sahib Məmmədovun axır zamanlar məntiqini başa düşə bilmirəm. Bu insanda elə bil daxili etiraz hissi məntiqi üstələyir. Çox məsələlərdə Sahibin çox yaxşı rəyi olur, ağıllı araşdırmaları olur. Hərdən belə dirənir. Çox qəribə bir nəticəyə gəlir”.

**Sahib Məmmədov özü isə bildirib ki, bu qədər kənardan edilən təzyiqlərdən sonra əfvlə bağlı durum çox çətin olacaq:** “Bu boyda kənardan edilən təzyiqdən sonra çətin olacaq. Şəxsi qənaətim budur ki, Avropadakı bəzi QHT-lərin proyektləri çətin boşa getsin. Söhbət sizin gözlədiyiniz adamlardan gedirsə, yüz milyonlarla qrant alıblar. Tərəflərə də sərf edir ki, məhbuslar içərisində qalsın, onlar yenə də pullar alsınlar. Düşünürəm ki, təzyiqlər effektsizdir. Daxili dialoq mexanizmini tənqid edənlər beynəlxalq təzyiqin bir qara qəpiyə dəymədiyi barədə bir şey demirlər. Mən nəinki beynəlxalq təzyiqi faydasız, hətta zərərli hesab edirəm. çünki bu, daxili dialoqa qarşı bir zərbədir əslində”.

**Onun sözlərinə görə, əfv verilməməsi barədə konkret fikir bildirə bilməz:** “Əfvi prezident nə zaman imzalasa, o zaman veriləcək. Biz ehtimallar irəli sürə bilərik. Əfv prezidentə aid olan müstəsna səlahiyyətdir deyə, bizim nəsə deməyimizin xeyri yoxdur”.

**O, şəxsinə qarşı yönələn ittihamlara da münasibət bildirib:** “Tənqidlər boş şeylərdir. Əvvəla, biz həmin bəyanatın hazırlanmasında iştirak etmişik. Konkret təklifim də belə olub: Barəsində məhkəmənin qüvvəyə minmiş hökmü olan şəxslər... Hüquqi nöqteyi-nəzərdən yanaşanda, həmin adam cinayətdə təqsirli sayılır. Qanun hüquqi qüvvəyə minibsə, şəxs cinayətdə təqsirlidir. Bu, mənə irad tutanların söz güləşdirməsidir. Mən bəyanata imza atmaqla düz etmişəm. Dövlətini sevən hər bir şəxs belə də deməli idi. Onu deyim ki, beynəlxalq ajiotaj əslində o insanlara görə narahatlıqdan irəli gəlmir. Təzyiq davam edərsə, nəsə gözləməyə dəyməz”.

❑ **Röya RƏFİYEVA**



# Nemət Pənahlının oğlu milli komandadan uzaqlaşdırılmasından danışdı

## Orxan Pənahlı: “Atam həbsdə olmasaydı...”

**Hazırda Qobustan həbsxanasında cəza çəkən Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının oğlu Orxan Pənahlının respublika çempionu olması barədə xəbər vermişdik. Məhbus siyasətçinin oğlu MMA (Mixed Martial Arts - Qarışıq Döyüş İncəsənəti) üzrə respublika birincisi olub.**




**Orxan Pənahlı qələbə təəssüratlarını “Yeni Müsavat”la bölüşdü:** “İdmanla uşaqlıqdan məşğul oluram. Buna görə atama minnətdaram. Uşaq yaşlarımızdan atam bizə idmanın önəmini başa salıb. Biz səhlənkarlıq edəndə, daim idmana məcbur edib. Müəyyən yaşdan sonra idmanın önəmini özüm də anladım. Ümumiyyətlə, kişi üçün fiziki hazırlıq çox önəmlidir. Dünya səviyyəsində bir millətin təmsilçisi olmaq, vətənini, millətini dünyada tanıtmaq çox vacibdir. 5 yaşımdan idmanın müxtəlif növləri ilə məşğul olmuşam. Kikboks, MMA, Turan Do kimi idman növləri ilə”.

**Məhbus siyasətçinin qalib oğlu idmandakı uğurlarından danışdı:** “İndiki qələbəm ilk uğurum deyil. Bundan əvvəl, bir dəfə Kikboks üzrə respublika çempionu olmuşam, Avropa yarışlarında isə üçüncü yeri tutmuşam. İnamsız yarışa girmək olmaz. Mən ilk növbədə müəllimlərimə, onların mənə verdikləri qiymətə, sonra isə özümə güvənmişəm. Müəllimlərim mənə başqalarından fərqli olduğumu deyəndə, Allahdan idman sahəsində xüsusi istedad verildiyini söyləyəndə gücüm, inamım artıb. Uğur medal qazanmaq deyil. Sözsüz ki, çox çətinliklərim var. Amma bu gün fiziki hazırlığımla məşğul ola, seçilə bilirəmsə, bu, ən böyük uğurumdur. Atam həbsdə olmasaydı, bir də maddi imkanlarımız düzəlsəydi, daha yüksək uğurlara imza atardım”.

**Orxan Pənahlı çempion olduqdan bir gün sonra həbsxanada atası ilə görüşündən də söz açdı:** “Atam idmanla bağlı uğurlarımıza çox önəm verir. Nailiyyətimə görə çox sevindi. Düşünürəm ki, qələbəm elə də böyük uğur deyil. Atam da bunu dedi. Bilirəm ki, qələbəm həbsdə olan atam üçün bir fərqli oldu. Bilirdim ki, atam dörd divar arasındadır, qalib gəlsəm, çox sevinəcək. Bunu düşünüb, uduzmağı ağlıma belə gətirmirdim. Bəlkə də onun qəlbində keçirdiyi hissləri onun qədər anlaya bilmərik. Amma daim çalışmışam ki, həbsxanada xoş xəbərlərimizi eşitsin”.

**Orxan Pənahlı Avropa çempionatına buraxılmaması barədə bunları dedi:** “Mənim adımı boks üzrə yığmaya salmışdılar. Müəllimim mənə güvəndiyini və Avropa çempionatında birincilik qazana biləcəyimi deyirdi. Qızğın məşqlər keçirildiyi günlərin birində mənə dedi ki, daha gəlmə. Heç bir səbəb yox idi. İndiyə qədər də nə yığmanın rəhbəri, nə də müəllim bununla bağlı mənə izahat verməyib. İdman sahəsindəki uğur elə bir şeydir ki, təkcə insanın özü üçün deyil, eyni zamanda dövlət üçündür. Bu gün qazandığım uğur üçün ali təhsil aldığım Slavyan Universitetinin adına sevinirəm. Soruşanda deyirəm ki, oranın tələbəsiyəm. Bunun nəyi pisdir ki? Buna görə hesab edirəm ki, idmanın siyasətə heç bir dəxli yoxdur. Amma təəssüf ki, bu gün belə deyil. Mənə elə gəlir ki, ölkə prezidenti bunu bilsəydi, qarşı çıxardı. Əminəm ki, yarışlara qatılsaydım, uğur qazanardım. Sözsüz ki, qalib olsaydım, bayrağımız yüksələcəkdi. Yerimə kimsə göndərilməli idi. O şəxsə uğurlar arzulayıram. İnşallah, qalib olar. Kimin olmasından asılı olmayaraq, Azərbaycan adı varsa, uğura sevinmək lazımdır. Şəxsən mən belə tərbiyə almışam. Nə olursa-olsun insan dövlətçiliyə sadiq olmalıdır və onu uca tutmalıdır”.

❑ **Cavanşir ABBASLI**

# Mursi haqda edam hökmü təsdiqləndi



Məhəmməd Mursi

**Misir məhkəməsi sabiq prezident Məhəmməd Mursi ilə bağlı yekun qərarını açıqlayıb. APA-nın “Röyters”ə istinadən verdiyi məlumata görə, qərara əsasən M.Mursi haqqında ölüm hökmü təsdiqlənib.**

Məhkəmənin qərarı ilə həmçinin “Müsəlman qardaşları”nın lideri Məhəmməd Badi haqqında ölüm hökmü çıxarılıb.

Bundan əvvəl yayılan xəbərdə isə deyilirdi ki, Məhəmməd Mursi barədə çıxarılmış edam cəzası ləğv edilib. Misir məhkəməsi daha əvvəl haqqında ölüm cəzası çıxarılan Mursi barədə hökmü dəyişərək, onu ömürlük həbs cəzası ilə əvəz edib. Qeyd edək ki, Misir məhkəməsi devrilmiş prezident haqda edam cəzası çıxarmış və bu qərar dünyanın bir çox dövlətlərində ciddi etirazla qarşılanmışdı.

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015




# "Lider TV" qaçqını ingilis turist Ceyms kimi danışdırdı...

## Seymur Səfərovun dostları bunu telekanalın qeyri-peşəkarlığı hesab edir; telekanal isə "müxbir hər müsahibə aldığının nəsil-kökünü araşdırmalıdır?" deyir...

**İyunun 15-də "Lider" telekanalında yayımlanan bir süjet ciddi səs-küyə səbəb olub. Belə ki, telekanal Mingəçevir avarçəkmə mərkəzindən Avropa Oyunları ilə bağlı hazırladığı reportajda cəbrayıllı məcburi köçkün Seymur Səfərovu ingilis turisti Ceyms Boner kimi təqdim edib. Seymur Səfərov Azərbaycandan, ölkəmizin yeməklərindən ağız dolusu danışaraq Azərbaycan xalqını mükəmməl insanlar adlandırıb.**

Sosial şəbəkələrdə müzakirə olunan bu mövzuda iki mövqe vardı və mübahisə gedirdi. Tərəflərdən biri bu biabırçılığın yaşanmasında "Lider TV"nin reportyorunu günahlandırır və gəncin ölkə barədə təmtəraqlı fikirlərin deyilməsinə məcbur edildiyini iddia edirdi. Amma bunun əksini düşünənlər də vardı. Onlar reportyorun S.Səfərov adlı həmin gənc tərəfindən aldadıldığını, onun cəzalandırılmalı olduğunu deyirdi.

**S.Səfərovu tapıb danışdırmaq mümkün olmasa da, sosial şəbəkədəki mübahisələrin gedişində özünü S.Səfərovun dostu kimi təqdim edən Orxan Paşa Abdullayev olay barədə geniş izahat yazıb:** "Mən Seymurun dostu və iş yoldaşıyam. Mingəçevir Atletlər Kəndində işləyirik. İstirahət vaxtı turistlərlə gəzməyə çıxmışdıq. Elə bu vaxt xaricilərlə ingilis dilində, onların aksenti ilə danışan Seymuru görəndə həm turistlərdən, həm də Seymurdan müsahibə almaq istədilər. Sözü sözün arxasınca qoşa bilməyən "Lider TV" əməkdaşı güc-bəla ilə Seymura sual verir, Seymur da onları utandırmaq üçün yanında olan menecerin adını - Ceyms - verir və başlayır danışmağa. Bu gün isə bütün səhifələr arsız şəkildə kanalın qeyri-peşəkarlığını yox, vətəndaşın etdiyini qınayırlar".

**Bu arqumentə Liderçilərin cavabı isə olduqca ilginc idi. Rəhbərlik səviyyəsində olmasa da, sıravi əməkdaşlar məsələyə dair cavablar yazırdılar. Onlardan biri yazıb:** ""Lider TV" xalqı aldatmır eee, xalqı belə alçaqlar aldadır. Adını Ceyms, özünü ingilis kimi təqdim edib müxbirə. Reportyor neyləməlidir? Hər müsahibə aldığının götürüb nəsil-kökünü araşdırmalıdır ki, bu Ceymsin adı altında kim gizlənib? Yoldaşlar, bu, müxalifətin 5-ci kalonunun Avropa Oyunlarına növbəti kölgə salma təxribatıdır".

**"Lider TV"nin Xəbər departamentinin sosial və mədəniyyət redaksiyasının rəhbəri Elnur Niftəliyev aznews.az-a açıqlamasında əsl ad və soyadı Seymur Səfərov olan şəxsin jurnalisti bilərəkdən aldatdığını bildirib:** "Reportajdakı bu müsahibəyə görə müxbiri yox, məhz həmin bu addımla təxribat yaratmaq istəyən şəxs kimi qınamaq lazımdır. Jurnalistlər analoji beynəlxalq tədbirlərdə gərgin və sıx rejimdə çalışırlar. Bu qaçaqaçda hansısa vətəndaşın alçaqlıqla məşğul olacağı kimi ağlına gələr?! Qəsdən özünü əcnəbi kimi təqdim edir və sonra bunu məqsədli şəkildə video olaraq yayıb, öz aləmlərində nəyə isə nail olmaq istəyirlər".

**E.Niftəliyev bu cür tədbirlərdə jurnalistin kimisə "analiz" etməyə vaxtının olmadığını vurğulayıb:** "Bu cür tədbirlərdə jurnalistlər "analiz" aparmaq üçün vaxt sərf edə bilmirlər. İş çox, vaxt az. Xəbər və onun ətrafında yaşananları bir an öncə tamaşaçıya çatdırmaq həyəcanı da buraya əlavə olunanda vəziyyəti anlamaq o qədər də çətin olmur. Bu şəxsin tək jurnalistə yox, xalqına, dövlətinə qərəzli mövqeyini, xəyanətini görmək üçün iki göz yox, sadəcə, vicdanlı vətəndaş olmaq kifayətdir".

**Redaksiya rəhbəri bu məsələdə subyektiv fikirlərlə rastlaşdıqlarını deyib və jurnalisti qınayanlara da cavab verib:** "Aləmə car çəkiblər ki, "Lider" televiziyası onu əcnəbi kimi efirdə göstərib. Bununla da məsələ bütün sosial şəbəkələrdə bir nömrəli müzakirə mövzusuna çevrilib. Bilən də yazır, bilməyən də. Amma daha çox subyektiv fikirlərlə rastlaşırıq. İdman yarışlarının bu sıxlıqda davam etdiyi, media nümayəndələrinin bəzən istirahətsiz çalışdığı bu vaxtlarda hər müsahibin üzərində DNT analizi aparılmalıdır? Yoxsa bundan sonra müsahibin şəxsiyyət vəsiqəsini, doğum şəhadətnaməsini, JEK-dən arayışını da tələb edək? Bəziləri deyir ki, niyə müxbir onun azərbaycanlı olduğunu anlamayıb? Bir məqama diqqət çəkirəm. Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq küçədə kimin rastına çıxsa, xarici görünüşündən onu azərbaycanlıdan heç nə ilə fərqləndirmək olmaz. Yəni ingilis, italyan və ya başqa Avropa ölkəsinin nümayəndələri arasında həmyerlilərimizə oxşayanlar heç də az deyil".

❑ **Sevinc TELMANQIZI**

# Rəqsanənin verilişi dayandı

**Müğənni Rəqsanə İsmayılovanın ATV-də efirə gedən "Göz önündə" verilişinin yayımı dayanıb. "Qafqazinfo" xəbər verir ki, sənətçi axşam.az-a müsahibəsində bunun səbəblərini açıqlayıb:**

"Avropa Oyunlarına görə proqramı saxladıq. Amma çəkilişlərim davam edir. Orada bir çox taleləri həll edirik. Sentyabrdan yenidən yayımlanacaq. Bununla yanaşı, daha bir veriliş üzərində işləyirəm. O da payızda ATV-də efirə gedəcək".

**R.İsmayılova aparıcılığına irad bildirənlərə də cavab verib:** "Peşəkar aparıcı, siyasətçi deyiləm. Mən ifaçıyam, Azərbaycan qadınıyam. Verilişim olmayanda da insanlara kömək əli uzadırdım. Düşündüm ki, bunu başqa proqramlarda etməkdənsə, özüm veriliş açım. Kiməsə kömək etdikcə, özümlə fəxr duyuram. Biz toylara gedirik, pul qazanırıq. İnsanlara kömək etməyi özümə borc bilirəm".



Rəqsanə

# RATİ-nin işçiləri mühacirətə getməyi düşünmürlər




## **Arif Əliyev:** "Yaxşı olardı ki, məsələləri bu mürəkkəbliyə gətirib çıxarmayaq"

**Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) rəhbəri Emin Hüseynov iyunun 13-də Azərbaycanı tərk edərək, İsveçrəyə gedib. 10 aydan çoxdur sığındığı İsveçrə səfirliyindən RATİ rəhbərini həmin ölkənin Bakıda səfərdə olan yüksək rütbəli diplomatı Didye Burkhalter çıxarıb. D.Burkhalter Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Bakıya gəlib.**

İsveçrə Federal Xarici İşlər Departamentinin ATS agentliyinə verdiyi rəsmi məlumata əsasən, E.Hüseynovun Bakıdan çıxarılması Azərbaycan hakimiyyəti ilə uzun müddətdir aparılan danışıqların nəticəsidir.

Nazirliyin nümayəndəsi Jan-Mark Crevoiser bildirib ki, 35 yaşlı E.Hüseynov hazırda Berndədir, İsveçrədə qalmaq üçün sentyabr ayına qədər vizası var və vizanın müddətinin başa çatmasından sonra bu ölkədən siyasi sığınacaq almaq üçün müraciət etmək hüququna malikdir. İsveçrə XİN rəsmisi Emin Hüseynovun harada olduğu barədə KİV-lərə açıqlama vermək istəmədiyini bildirib.

İddiaya görə, anlaşmanın əsas bəndində İsveçrənin Avropa Oyunlarına rəsmi nümayəndə göndərməsi şərti dayanıb. Yəni nümayəndənin bu oyunlarda iştirak etməsi E.Hüseynovun ölkədən çıxarılmasına şərait yaradılması ilə nəticələnib.

E.Hüseynov ölkədə olarkən RATİ-nin əməkdaşları da daim təzyiq və təhlükə altında idi. Onlar zaman-zaman sosial şəbəkədəki statuslarında izlənildiklərini, telefonlarının dinlənildiyini yazırdılar. Bundan başqa, RATİ ilə bağlı da istintaq hərəkətləri aparılırdı. Maraqlıdır, bundan sonra işçilər üçün təhlükə aradan qalxıbmı? Onlar bu gediş barədə nə düşünür?

**RATİ-nin baş mühasibi Tatyana Kryuçkina "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, E.Hüseynov bir neçə gündür ölkəni tərk edib. Bu səbəbdən də hələlik heç bir dəyişiklik hiss olunmur:** "Əvvəllər izlənmə var idi, hiss edirdik. İzləmə demək olar ki, davamlı olaraq olurdu. Prokurorluğa da mütəmadi olaraq çağırırdılar. Amma yanvar ayından bəri prokurorluğa çağırılmanı dayandırdılar".

**T.Kryuçkina dedi ki, E.Hüseynovun ölkədən getməsi barədə məlumatı mətbuatdan oxuyub:** "Hələ ki, bizimlə əlaqə saxlamayıb. Başqalarıyla əlaqə saxlayıb-saxlamaması barədə isə məlumatım yoxdur".

**"Emin Hüseynovdan sonra RATİ-nin işçiləri də mühacirətə gedə bilərmi" sualına cavabda isə müsahibimiz belə bir fikri olmadığını bildirdi:** "Özümün heç vaxt belə bir planım olmayıb. Başqalarını deyə bilmərəm".

**RATİ-nin hüquqşünası Günay İsmayılova isə E.Hüseynov ölkədə olanda və axtarışa veriləndə də üzərində hər hansı yük olmadığını xatırlatdı. Müsahibimiz RATİ sədrinin ölkədən çıxmasından sonra hər hansı təzyiq, yoxlama olmadığını dedi:** "Amma bundan sonra nə olacaq, deyə bilmərəm. Azərbaycanda hər şey ola bilər. Yaşayarıq, görərik. Cəmi iki-üç gündür Emin Hüseynov ölkədən çıxıb".

**Müsahibimiz E.Hüseynovun ölkədən çıxması ilə bağlı xəbəri mətbuatdan oxuduğunu dedi:** "Hələ ki hər hansı əlaqə qurmamışıq. Səfirlikdə olmasını bilirdik. Bu barədə xəbər yayılmışdı daha öncə. Amma mən ilk gündən proseslərin içində deyiləm. Nə səfirliyə girəndə xəbərim olub, nə də çıxanda".

**Bu, Azərbaycanda bizə məlum olan ikinci jurnalist qaçırılmasıdır. Bundan öncə "Azadlıq" qəzetinin əməkdaşı Aqil Xəlil də xüsusi müşayiətlə ölkədən çıxarılmışdı. Azərbaycandan jurnalistlərin bu cür üsulla qaçırılması nədən xəbər verir? Anlaşma hesabına belə olsa, E.Hüseynovun başına gələnlər təkrarlana bilərmi?**

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, E.Hüseynov nümunəsi bizə məlum olan ikinci jurnalist qaçırılmasıdır:** "Bu istiqamətdə müəyyən cəhdlər olub, amma qarşısı alınıb. Bəziləri haqda geniş məlumat verilmir, daha doğrusu, məlumat yayılmayıb. Belə bir problemin mövcudluğu məsələnin qaydasında olmadığından xəbər verir. Çünki Emin Hüseynovun səfirlikdə qalması həbs təhlükəsi, RATİ-nin fəaliyyətinin dayandırılması ilə bağlı idi. Müsbət nəticədir ki, həbslə nəticələnmədi. Amma digər tərəfdən, ölkəni tərk etmək məcburiyyətində qaldı. Bunu media azadlığı və söz hüquqları ilə bağlı problemin növbəti təzahürü kimi görürəm. Yaxşı olardı ki, məsələləri o mürəkkəbliyə gətirib çıxarmayaq və nəticədə jurnalistləri Avropa ölkələri, xarici işləri nazirləri yanına salıb aparmasınlar".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015

## Avropa Birliyinin "üsyankar" səfirlə üzülüşməsinin şok səbəbi



# Qovulmuş diplomatın arxasından Abbas Abbasov çıxdı

### Arif Məmmədovun postundan geri çağırılması Brüsselin rəsmi Bakıya jesti sayıla bilməz - buna səbəb məhz səfirin arxasındakı gücün üzə çıxması, bəlkə də ifşasıdır; Abbas Abbasovla dostluq əlaqələri olan sabiq diplomat Rüstəm İbrahimbəyovun imtina etdiyi posta - Milli Şura həmsədrliyinə gətirilə bilər...

**İslam Konfransı Təşkilatının Avropa Birliyindəki səfiri Arif Məmmədovun postundan geri çağırılması xəbəri, nəhayət, rəsmən təsdiqləndi. Məlumata görə, Arif Məmmədov İƏT-in diplomatı statusundan məhrum edilib və təşkilatın sıralarından çıxarılıb.**

19 mayda Binəqədidə yanan bina ilə bağlı bir gün sonra məmurları tənqid edən statusundan sonra onun ətrafında başlamış "fırtına" diplomat karyerasına son qoysa da, indi meydana məhz planlaşdırıldığı kimi yeni bir obraz - müxalifətçi Arif Məmmədov çıxarılıb.

**Arif Məmmədov mediaya müsahibəsində bildirib ki, özü istefa ərizəsi verərək bu postdan gedib və səfiri olduğu beynəlxalq təşkilat da onun bu ərizəsini nəzərə alıb. A.Məmmədov bəyan edib ki, artıq ciddi siyasətlə məşğul olacaq:** "Mən peşəkar siyasətə gələrək, ölkəmin və xalqımın problemləri ilə məşğul olacağımla bağlı bəyanat vermişəm. Bu bəyanat bütün ölkə ictimaiyyətinə, eləcə də Avropanın siyasi çevrələrinə bəllidir. Hər kəs anlayışlı qarşılayar ki, mənim siyasətçi olaraq konkret bir beynəlxalq təşkilatın səfiri vəzifəsi ilə özümü məhdudlaşdırmağım doğru alınmazdı. Hesab edirəm ki, bu vəzifədən istefa verməli idim və bunu da etdim. İndi birbaşa "Azərbaycan Vision-2025" proqramı ilə məşğul ola bilərəm və yaxın gələcəkdə uğura inanıram". Arif Məmmədov əlavə edib ki, ölkəni böhran vəziyyətindən çıxarmaq üçün qarşıdakı 10 ili əhatə edən proqram üzərində işləyir.

A.Məmmədovun cəmi 1 ay ərzində diplomatdan az qala müxalifət liderinə çevrilməsi, hətta prezidentliyə namizəd olacağını bəyan edərək 10 illik anti-böhran proqramı ilə ortaya çıxması ictimai müzakirələrdə onunla bağlı ziddiyyətli versiyalar yaradıb.

**Birinci versiya.** Məlumdur ki, hakimiyyətin Riqa samitindən sonra Avropa Birliyi ilə münasibətləri gərginləşib. Arif Məmmədovi isə son 2 ildə Avropa Birliyini təmsil edib və 20 ildir ki, bu təşkilatın yerləşdiyi Brüsseldə məskunlaşıb. Onun özü də məhz "Qərbin adamı" olduğuna dair informasiyaların yayılmasında maraqlı olduğunu büruzə verib. "Qərbdə kifayət qədər geniş tanınmağımı və imkanlarımın olduğunu bilərək primitiv şəkildə Qərbə mənim Rusiyanın dairələrinə yaxın olduğumu çatdırmaq istəyirlər. Bu, Avropada gülüşlə qəbul olunur. Ölkə daxilində kimsə buna inanırsa belə, Qərb mənim heç bir xarici qüvvəyə bağlı olmadığımı çox gözəl bilir" deyə, müsahibələrinin birində sabiq diplomat bildirib. Diplomatla bağlı daha bir sensasion iddia onun Rusiya kəşfiyyatına bağlılığıdır ki, bunu israrla təkzib edir. İddialarda deyilir ki, Rusiya öz adamı olan A.Məmmədovun müxalifətçiliyini qabardaraq Azərbaycan hakimiyyətindən narazı olan Qərbə "yeni lider" kimi sırımaq istəyir.

Maraqlıdır ki, A.Məmmədova ilk sahib çıxan da məhz "Rusiya projesi" - Milli Şura rəhbərliyi olub. Diplomat da ilk gündən Milli Şurada təmsil olunan partiya liderinin "uca xalqım" müraciətini "sevimli xalqım" sözləri ilə bənzətmə edib, bu qurumun media orqanını "əsl müxalifət mediası" adlandıraraq ona oxucular toplamaq işinə girişib. Arif Məmmədovun Rusiyanın adamı olduğuna dair iddialar təsadüfi deyil. O, SSRİ dönəmində Moskvada daha çox xaricdə işləmək üçün xüsusi təlimatlarla kadr hazırlayan Hərbi Tərcüməçilər İnstitutunda oxuyub. Heç kimə sirr deyil ki, təkcə Moskvada deyil, Sovet İttifaqının bütün respublikalarında institutların "tərcüməçi"lər hazırlayan xüsusi fakültələri vardı. Arif Məmmədov israrla bu kimi iddiaları təkzib edir, amma Qərb dəyərlərindən ağızdolusu danışsa da, nədənsə, Kremli siyasətini hədəfə almır. Məntiqlə Brüsseldə diplomat olan və uzun illər Avropa Birliyində işləmiş A.Məmmədov anti-Rusiya mövqeyi ilə seçilməli idi.

Redaksiyamıza verilən xəbərə görə, A.Məmmədov təmsil etdiyi qurumdan özünün iddia etdiyi kimi, istefa verməyib, məhz qovulub! Aydındır ki, Azərbaycan hakimiyyətinin indilikdə Avropa Birliyinin qərarlarına təsir imkanları o qədərdə ciddi sayıla bilməz. Arif Məmmədovun diplomat kimi həddini aşan bəyanat verməsinə də Brüssel dözə bilərdi, ya da ən pis halda onun yerini dəyişə, başqa bir diplomatik işə təyin edə bilərdi. Amma göründüyü kimi, Avropa Birliyi Arif Məmmədovla, necə deyərlər, bütün diplomatik əlaqələrə son qoyub. Bu isə yenə təkrar edirik ki, Brüsselin rəsmi Bakıya jesti sayıla bilməz. Bu, məhz Arif Məmmədovun hərəkətə gətirilməsindən sonra onun arxasındakı gücün üzə çıxması, bəlkə də ifşasıdır.

Qaynağımızın məlumatına görə, qalmaqallı diplomatın Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasovla da çox yaxın münasibətləri var. Mümkündür ki, A.Məmmədovu da rəsmi Bakı ilə düşmənçiliyə məhz Abbas Abbasovla... dostluq vadar edib.

Məlumdur ki, "Milyarderlər İttifaqı" deyilən qurumu yaradaraq Azərbaycan hakimiyyətinə 2013-cü il seçkilərində ciddi başağrısı gətirən, Kremlin xeyir-duası ilə Milli Şura yaradaraq onun rəhbərliyinə yaxın dostu Rüstəm İbrahimbəyovu oturdan Abbas Abbasov iqtidarla bütün körpüləri yandırıb. Onun bağışlanılması üçün etdiyi son cəhd - Avropa Oyunları zamanı Bakıya gəlmək istəməsinə iqtidar yenə "yox" dedi. A.Məmmədovla Abbas Abbasovun deputat oğlu Aydın Abbasovun da yaxın münasibətləri olduğu deyilir. Bir neçə il Avropa Şurasında Azərbaycanı təmsil edən Arif Məmmədov parlament nümayəndə heyəti tərkibində Strasburqa gələn Aydın Abbasova xüsusi diqqət göstərirmiş.

"Yeni Müsavat" ötən saylarının birində Arif Məmmədovu İbrahimbəyov variantında müxalifətçiyə çevirmək planı olduğu barədə yazmışdı. Yazıda xüsusi vurğulanırdı ki, A.Məmmədovun tezliklə Azərbaycandakı hansısa müxalifət partiyasına üzvlüklə bağlı müraciəti də mümkündür. Redaksiyamıza verilən xəbərdə iddia olunur ki, mümkündür ki, yaxın zamanlarda Abbas Abbasovun daha bir yaxın adamı - Arif Məmmədov Milli Şurada Rüstəm İbrahimbəyovun imtina etdiyi posta - həmsədrliyə gətirilsin...

**Arifə hərdən bir işarə də kifayətdir...**

**❑ "Yeni Müsavat"**

# Platon haqlıdırmı?



**Hüseynbala SƏLİMOV**

**Deyirlər ki, bütün Qərb fəlsəfəsi Plantona nəzirələr və şərhlərdir. Həmin Platon özü isə çox şey demişdi. Onlardan biri də budur ki, Platonun fikrincə, həyat özü oyundur, böyük bir oyun...**

Bu möhtəşəm Avropa Oyunlarının gedişində birdən-birə mənim də oyun mövzusuna müraciət etməyim elə yozula bilər ki, guya mən də bu oyunların təəssüratı altındayam...

Amma yox. O qədər də yaxşı azarkeş deyiləm, uşaqlıqda da daha çox fəal oyunlara, yəni özüm oynamağa üstünlük verirdim...

Bu yaşda isə məni daha çox siyasi və ictimai həyatdakı, bəli, düz başa düşdünüz, siyasi oyunlar maraqlandırır... İyun ayında həmişə 1993-cü ili yada salıram. Ona görə ki, mən həyatımda iki böyük oyun görmüşəm ki, onlar ən mahir məşqçiləri təəccübləndirərdi...

Onlardan birincisi 1991-ci ildəki putç, guya ki, M.Qorbaçovu devirmək üçün edilən cəhd idi...

İkincisini isə 1993-cü ilin iyununda Azərbaycanda gördüm. Bəli, bunlar mənim gördüyüm ən böyük siyasi oyunlar idi... Xüsusən də Azərbaycanda gördüklərim məni çox heyrətləndirdi. O vaxt parlamentdəki çıxışları, kimlərə söz verilməsini, kimlərə verilməməsini izləməklə başa düşmək olardı ki, bəli, burada böyük bir oyun gedir...

Bu oyunun da öz predmeti vardı. Bu oyun hakimiyyət uğrunda idi. Bəli, hakimiyyət oyuna çıxarılmışdı, o, oyunu udanların olmalı idi. Bundan bir az əvvəl də belə oyunlar olmuşdu, amma bu, artıq final yarışları idi. Ona görə də daha dramatik və daha gərgin idi...

Başa düşürəm, Azərbaycanda "Əşi, oyundur!" sözləri artıq ironik bir çalar alıb və hər dəfə onu dilə gətirəndə həmin dövrün adamları qayıdırlar ki, əşi, nə oyun, siz elə hər şeyə oyun deyirsiniz, əslində "alfa qrupu" bir tərəfdən hücum etmişdi, "beta qrupu" o biri tərəfdən...

Amma reallıqda nə "alfa qrupu" vardı, nə də ki, "beta"-ortada yalnız biz vardıq, bəli, biz azərbaycanlılar, özümüzün bitib-tükənməz ambisiyalarımızla, öz eqomuzla...

Bunu sizə dəqiq deyirəm. Çünki o dövrün adamlarının çox etiraflarının şahidi olmuşam. Həm də onların bircə-bircə aqibətini də görmüşəm...

Qiymət vermək fikrindən uzağam. Həm də bəzən buna ehtiyac da olmur. Sadəcə, başa düşdüyüm bu idi ki, əslində bu oyun hələ 1988-ci ildən başlamışdı. 1993-cü il isə onun finalı idi... Biz də bu oyunun piyadaları idik...

1993-dən sonra da oyun davam etdi. Amma bir qədər başqa ssenari ilə və o vaxt artıq bu, əvvəlki gərginliyində və dramatikliyində deyildi, çünki artıq bu, əvvəlki oyun da deyildi, son hesab irəlicədən bəlli idi...

Bir dəfə çox maraqlı bir detal oldu. Müxalifətin növbəti mitinqini, daha doğrusu, mitinq cəhdini teatrın otağından seyr edən bir rejissor dedi ki, əcəba, mən başa düşə bilmirəm, oyun burada gedir, yoxsa küçədə, mən burada oyun qururam, yoxsa onlar orada?..

Ertəsi günü bütün müxalifət ona etiraz etdi, irad tutdu. Amma o, haqlı idi və bu adamın "suç"u sadəcə, onda idi ki, bu haqda ucadan danışmaq qəbul olunmamışdı və oyundakı iştirakçıların hamısı bu qaydaya ciddi əməl edirdi...

Axırda nə oldu? Vaxt keçdi və vədə yetişdi, oyun tamam bitmək mərhələsinə çatdı. Dedilər ki, daha oyun bitdi. Amma ölkədə artıq bir oyunçular nəsli yetişmişdi. Onlar əvvəlcə özlərinin tamam gərəksiz olması fikri ilə heç barışa bilmirdilər. Hətta açıq deyirdilər ki, heç olmasa, imitasiya, yəni, heç olmasa, oyun olsun...

Amma yox. Artıq gec idi. Daha oyun bitmişdi. Ona görə də mən daha "Ölkədə oyun gedir" deyə bilmirəm, çünki 1988-ci ildən başlanan oyun yekunlaşıb.

Oyunçuların isə bu illər ərzində edə biləcəyi, bu böyük oyunun içində özlərinin kiçik oyunlarını qurmaq idi...

Amma bunu da hamı edə bilmədi. Yalnız ən hiyləgərlər, böyük ssenaridən xəbərdar olanlar bunu bacardılar. Onlar da böyük bir şey əldə edə bilmədilər və olsa-olsa, qoca çağlarını ciddi problem olmadan başa vurmaq üçün nəsə qopara bildilər...

Bir daha deyirik ki, bunu da hamı edə bilmədi. Böyük əksəriyyət oyundan tam sıfır nəticə ilə çıxdı. Və onlara yalnız xatirələr qaldı. O xatirələr ki, onlar yalnız ovundurmur, yalnız təskinlik vermir, həm də ağrıdır, ürəkləri göynədir...

Ona görə də bir daha Platona qayıdırıq. Çünki onu bir daha eşitmək zorundayıq. Nə etmək olar? Həyat elə həqiqətən də böyük oyundur və həmin bu böyük oyunda sənin edə biləcəyin yalnız öz kiçik oyununu qurmaqdır...

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015

**Bir neçə aydır proqram əsasında ABŞ-da fəaliyyət göstərən Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatının sədri, iqtisadçı alim Qubad İbadoğlu "Yeni Müsavat"a müsahibə verib. Müsahibimiz Azərbaycanla Qərb paytaxtları arasında yaşanan gərginliklər, Avropa Oyunlarına münasibət, parlament seçkiləri, Müsavat ətrafında davam edən müzakirələr və digər aktual mövzulara münasibət bildirib.**

# "Proqramımı başa çatdıran kimi vətənə dönəcəm"

## Qubad İbadoğlu: "Avropa Oyunlarına Azərbaycanın ev sahibliyi etməsinin deyil, atəşfəşanlıqlara izafi xərcləmələrin əleyhinə olmuşam"



***- Azərbaycanla Qərb arasında yaşanan gərginliklərin səbəbi ABŞ-dan necə görünür? Yəqin görüşləriniz, təmaslarınız olur və bu barədə danışılır. Sizin fikirləriniz maraqlıdır...***

- Həm müşahidələr və həm də müzakirələr göstərir ki, Azərbaycanın gələcəyinə münasibətdə mövcud hakimiyyətin mövqeyi ilə Qərb institutlarının yanaşmaları arasında ciddi fərqlər yaranıb. Hazırkı şəraitdə ölkədə demokratik dəyərlərin və azadlıqların bərqarar olmasını, hüquqi dövlətin və demokratik təsisatların yaradılmasını, açıq və mülki cəmiyyət quruculuğunun inkişafın, sabitliyin və təhlükəsizliyin təminatı hesab edən Qərbdən fərqli olaraq, Azərbaycan hakimiyyəti renta gəlirləri üzərində qurulan dayanıqsız iqtisadi sistemin qısamüddətli dividentlərindən bəhrələnərək həyata keçirdiyi bahalı layihələr hesabına modernləşdməyə, idmanın, incəsənətin inkişafına sərmayələri ilə önə çıxmağa və özünü müasir dünyanın bir hissəsi kimi təqdim etməyə çalışır. Bu isə insanların azadlığına və fərdi inkişafına dəyər verən Qərblə idarəetmədə avtoritarlığa və inzibatçılığa üstünlük verən Azərbaycan hakimiyyəti arasında əsas fikir ayrılığıdır. Kənardan baxanda iki ayrı istiqamətli, üst-üstə düşməyən və heç vaxt kəsişməyən xətt aydın görünür. Zahiri görüntü belədir ki, sanki onlar bir-biri ilə fərqli dillərdə danışır və bir-birilərini başa düşmürlər. Amma əslində hər iki tərəf istəklərini anlaqlı və davamlı olaraq öz məqsədlərini hədəfləməklə həyata keçirir. Çox müxtəlif ölkələrə və fərqli dövrlərə xas olan bu tip mübarizələrdə isə həmişə bir qalib olub, o da xalqın iradəsini ifadə edən demokratiya.

***- Avropa təşkilatları məhz Avropa Oyunları ərəfəsində Azərbaycana qarşı böyük təzyiq kampaniyasına start verdi. Bu, doğrudanmı yalnız insan haqları və demokratiyanın vəziyyəti ilə bağlıdır, yoxsa başqa səbəblər var?***

- Əgər çox yaxın keçmişə nəzər salsaq görərik ki, Avropanın demokratiya və insan haqları uğrunda qlobal mübarizə təşkilatları eyni yanaşmaları digər avtoritar dövlətlərə münasibətdə də nümayiş etdiriblər. Nəzərə alsaq ki, Azərbaycan Avropanın siyasi coğrafiyasına daxil olan dövlətdir və ölkəmizdə də Avropa Şurasına üzv olan Rusiya, Belarus, Ermənistan kimi dövlətlərdə olduğu kimi, demokratikləşmə istiqamətində ciddi problemlər var. Eynilə adıçəkilən ölkələrin hər birində siyasi fəaliyyət məkanı dardır, vətəndaş cəmiyyətinin əvvəlki imkanı məhdudlaşıb. Xatırladım ki, Avropadakı beynəlxalq institutlar eyni yanaşmanı bir vaxtlar Soçi olimpiadası zamanı Rusiyaya münasibətdə də nümayiş etdiriblər. Burda əsas məqsəd demokratikləşmə potensialı yüksək olan Azərbaycan kimi ölkələrdə təşkil olunan beynəlxalq səviyyəli tədbirlərdən öz mesajlarını çatdırmaq və populyarlaşdırmaq üçün istifadə etməkdir. Onlar buna özlərinin cari işləri, həyata keçirdikləri vəklillik strategiyasının tərkib hissəsi kimi baxırlar və təbii ki, hər bir vəkillik siyasətində təzyiq vasitələri də mövcuddur.

## "Qələbələr hər bir Azərbaycan vətəndaşında iftixar hissi yaradır"

***- Sizin Birinci Avropa Oyunları ilə bağlı sosial şəbəkədə açıqladığınız mövqeyiniz də birmənalı qarşılanmadı. Altenativ fikir müəlliflərinin arqumentlərinə cavabınız varmı?***

- Bu, gözləniləndir. Əgər hər hansı bir yanaşma hamı tərəfindən eyni qəbul edilərdisə, onda mən öz mövqeyimə şübhə ilə yanaşardım. Mövqeyimiz dəyişməyib. Bu il martın 16-da Azərbaycan Demokratiya və Rifah (ADR) Hərəkatı olaraq, qonaqpərvərlik adı altında sərgilənən bədxərclikdən, atəşfəşanlıqdan narahatlığımızı ifadə etmişdik. Hələ o zaman hökumətə Avropa Oyunlarının büdcəsinə yenidən baxmağı və əməliyyat xərclərini optimallaşdırmağı təklif etmişdik. Hesab etmidik ki, neftin qiyməti ilə bağlı yaranmış çətinliklər, iqtisadi problemlər fonunda xərcləmələrin rasionallaşdırılması Avropa Oyunlarının iştirakçıları və qonaqlar tərəfindən də anlayışla qarşılanar. Əks halda, qonaqpərvərlik adı altında sərgiləyəcəyimiz bədxərclik onlarda da haqlı suallar yarada bilər. Mən ADR Hərəkatının sədri olaraq bu oyunlara Azərbaycanın ev sahibliyi etməsinin deyil, atəşfəşanlıqlara izafi xərcləmələrin əleyhinə olmuşam. Hesab etmişəm ki, bu tip tədbirlər maksimum rasionallıqla və hesabatlılıqla təşkil edilməli, xərclər şəffaf olmalı, sərf edilən hər bir manat vəsaitlə bağlı ölkə vətəndaşlarımız müntəzəm məlumatlandırılmalıdır. Bundan əlavə, Avropa Oyunlarının başlanması ərəfində mən bu oyunlara qatılan 291 idmançımıza qələbələr arzulamışam. Arzu etmişəm ki, Azərbaycanımız zirvələri fəth etsin, üç rəngli bayrağımız dəfələrlə yüksəlsin, himnimizin musiqisi təkrar-təkrar səslənsin. Bu da hər bir azərbaycanlıya xas olan vətəndaş mövqeyidir. Həqiqətən də yarışlarda idmançıların çətinliklə əldə etdiyi qələbələr hər bir Azərbaycan vətəndaşında iftixar hissi yaradır, onlar ölkəmizin bayrağının yüksəlməsindən və himnimizin səslənməsindən qürur duyurlar. Bu da çox vacibdir. Bu gün hər bir Azərbaycan vətəndaşının kiçik və ani olsa da, qələbə hissini yaşamağa ehtiyacı var. Hər qələbə bizim gücümüzü göstərir, bizə sevinc bəxş edir, özümüzə inamımızı artırır. Odur ki, bu oyunlarda bizə qələbə hissi yaşadan hər bir idmançımızı uğurlarına görə təbrik edirəm.

Bununla yanaşı, biz ADR Hərəkatı olaraq indi də hesab edirik ki, Azərbaycan hakimiyyəti Birinci Avropa Oyunları ilə bağlı çağırışlara da diqqət yetirməli, ölkənin Avropa ailəsinin müasir üzvü olduğunu sübut etmək üçün siyasi məhbusları azad etməli, vətəndaş cəmiyyətinin fəaliyyətinə olan məhdudiyyətləri aradan qaldırmaqla ölkənin demokratik imicini formalaşdırmalıdır.

Hesab edirəm ki, bu oyunlara yekun qiymət vermək hələ tezdir. Bu tədbir uzun müddət müzakirələrin mərkəzində olaraq bundan sonra da dəyərləndirmələrə məruz qalacaq.

***- Azərbaycan hakimiyyəti ATƏT-in Bakı Ofisinin fəaliyyətinə xitam verdi. Bu***

## "100 illik qoca çinarın - Müsavatın düşdüyü hazırkı arzuolunmaz durum məni çox təəssüfləndirir"

***xəbər Amerika dairələrində necə qarşılanıb, sizdə hansısa məlumat varmı?***

- Təəssüflər olsun ki, bəzi beynəlxalq təşkilatların da fəaliyyətində mandatdan kənaraçıxmalar müşahidə olunur. Bəzən personallaşma kontekstində baş verənlərin qiymətləndirilməsi də ciddi fikir ayrılığına gətirib çıxarır. Konkret olaraq ATƏT-ə gəlincə, onun Bakı ofisinin bağlanmasının əleyhinəyəm. Həqiqətən də ATƏT Azərbaycanda demokratikləşmə, insan haqları, iqtisadi inkişaf, anti-korrupsiya, ətraf mühitin mühafizəsi kimi vacib istiqamətlərə töhfələri olan beynəlxalq təşkilatdan biridir. Bu təşkilatın Azərbaycandakı fəaliyyəti dövründə faydalı proqramları olub və bundan çoxsaylı bəhrələnənlər də var.

***- Bakıdakı və ATƏT-in Vyanadakı baş qərargahındakı diplomatlar bildirib ki, ATƏT-in Bakıdakı Layihə Koordinatorluğunun bağlanması ilə əlaqədar olaraq təqsirləndiriləcək biri varsa, o da ABŞ diplomatıdır. Onlar iddia edir ki, amerikalılar Azərbaycanda hakimiyyət dəyişikliyinə can atırlar. Vaşinqton doğrudanmı Azərbaycanda hakimiyyət dəyişikliyi həyata keçirmək istəyir? Belə xəbərlər Amerika dairələrində necə qarşılanır?***

- Vaşinqtonda belə müzakirələrin keçirilməsi barədə məlumatım yoxdur. Azərbaycanda hakimiyyəti dəyişmək hüququ xalqa məxsusdur. Onu yalnız Azərbaycan xalqının iradəsi və demokratik yolla etmək mümkündür. İnanmıram ki, hazırkı şəraitdə beynəlxalq təşkilatlar belə fikrə düşsünlər, bu onların mandatına da daxil deyil. Hesab edirəm ki, bu tip dəyərləndirmələr və uzağa gedən nəticələrlə bağlı mülahizələr təxəyyül məhsuludur.

***- Avropa Oyunlarının açılışında aparıcı Avropa dövlətlərinin liderləri iştirak etmədi, amma Putin tədbirə qatıldı. Bu, hansı anlam daşıyır və Azərbaycanın siyasi oriyentasiyası baxımından hansı perspektivlər vəd edir?***

- Avropa dövlətlərinin Azərbaycana münasibəti Avropa Oyunlarının açılışında iştirak etməməsi ilə ifadə olunub və yekunlaşıb. Azərbaycan və Avropa arasında əməkdaşlığın geniş perspektivləri mövcuddur. Avropa institutları və dövlətləri ilə münasibətlərin bundan sonra vəziyyəti həm də Azərbaycan hakimiyyətinin inteqrasiyaya və Avropa dəyərlərinə münasibətindən asılıdır. Hətta ola bilər ki, Avropa Oyunları inteqrasiya prosesinə, xüsusilə də insanlar arasında ünsiyyətə töhfə versin.

***- Qubad bəy, Amerikadakı işləriniz, planlarınız və görüşləriniz barədə nə deyə bilərsiniz?***

- ABŞ-da proqramım davam edir, əsas funksiyam Azərbaycan, Rusiya, Qazaxıstan təcrübələri əsasında təbii sərvətlərin iqtisadiyyatı və demokratiyaya keçid arasında əlaqənin araşdırılmasına həsr olunmuş akademik tədqiqatı başa çatdırmaqdır. Bu tədqiqat çərçivəsində Vaşinqtonda və Nyu-Yorkda fəaliyyət göstərən müxtəlif akademik dairələrdə, beyin mərkəzlərində və dövlət institutlarında çalışan analitiklərlə, ekspertlərlə, professorlarla görüşlərim davam edir. Bununla yanaşı, mənim Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü üzrə Beynəlxalq İdarə Heyətinin üzvü olduğumu nəzərə alaraq şəffaflıq sahəsində qlobal tədbirlərə məruzəçi və iştirakçı kimi dəvət edirlər. Belə tədbirlər Dünya Bankında, Beynəlxalq Valyuta Fondunda, Vaşinqtonun Universitetlərində və beyin mərkəzlərində təşkil olunub. ADR sədri olaraq, cəlb olunduğum görüşlərdə də Azərbaycanda sosial-iqtisadi durum, siyasi vəziyyət, Qarabağ problemi, vətəndaş cəmiyyətinin çətinlikləri əsas müzakirə mövzularındandır. Bu proqram mənim peşəkar fəaliyyətim üçün də çox önəmlidir.

***- Sizin Bakıdakı ofisinizdə axtarışların aparılmasından və bir sıra sənədlərin müsadirə olunmasından sonra ölkəyə qayıdışınız üçün ciddi problemlərin yarandığını demək olarmı?***

- Ölkəyə qayıtmağımda heç bir problem görmürəm. Proqramımı başa çatdıran kimi vətənə dönəcəm. Xaricdə yaşamaq heç vaxt amalım olmayıb, burdakı azadlıqlara və rahatlıqlara həmişə qısqanclıqla yanaşmışam, bunlar bizdə niyə olmasın deyə, sözün həqiqi mənasında paxıllıq etmişəm. Burda Azərbaycanda tətbiqinə ehtiyac olan çox müsbət şeylər vardır, onları öyrənmək və görmək lazımdır. Ölkəmizi müasir dünyanın bir hissəsi kimi, bütöv, azad və firavan görmək istəyirəm. Harda olmağımdan asılı olmayaraq bu amallar üçün çalışıram.

***- Parlament seçkilərinə faktiki olaraq start verilib, sizin bu seçkilərlə bağlı düşüncələriniz nədən ibarətdir? ADR-in seçkilərlə bağlı xüsusi planı, proqramı varmı?***

- ADR Hərəkatı ictimai təşkilatdır. Azərbaycanın mövcud qanunlarına görə, ictimai hərəkatlar seçkilərdə iştirak edə bilməz. Biz bu təşkilatı yaradanda da bəyan etmişdik ki, ADR Hərəkatı olaraq seçkilərdə iştirak etməyəcəyik. Lakin bu o demək deyil ki, ADR hərəkatının üzvləri də seçkilərə qatılmayacaq. Kimlərsə fərdi qaydada namizədliyini irəli sürəcəksə, biz onun təşəbbüsünə saygı ilə yanaşacağıq. Konkret olaraq mənim özümə gəlincə, hələ Bakıda olarkən dəfələrlə bəyan etmişdim ki, builki parlament seçkilərində iştirak etməyi qərarlaşdırmamışam. Hətta düzünü desəm, heç ötən parlament seçkilərində də iştirak etmək niyyətim yox idi. Sadəcə, o zaman partiyalı olduğuma görə üzv olduğum partiyanın qərarlarına hörmət əlaməti olaraq namizədliyimin irəli sürülməsinə razılıq vermişdim. Azərbaycanda seçki qanunvericiliyi və onun icra prosedurları demokratikləşməyincə seçkilərə qoşulmaq niyyətində deyiləm. Mənim üçün proses deyil, nəticə önəmlidir.

***- Son vaxtlar Müsavat Partiyasında saxta mühacirət məsələsi müzakirə mövzusudur. Hətta məhkəmə iddiaları eşidilir. Bu proseslə bağlı nə deyə bilərsiniz?***

- Mən konkret faktlara malik deyiləm. Ona görə də hazırda deyilənləri nə təsdiq, nə də təkzib edə bilərəm. Ancaq hər iki tərəfin açıqlamalarını yaxından izlədiyimdən yalnız onu deyə bilərəm ki, 100 illik qoca çinarın - Müsavatın düşdüyü hazırkı arzuolunmaz durum məni çox təəssüfləndirir.

❑ **Elşad PAŞASOY**

# 22 il öncənin sirri: Elçibəy Kələkiyə getməsəydi...


Elçibəy Kələkidə

## "Prezident Bakıda qalsaydı, ya öldürülməli, ya həyatına sui-qəsd edilməli idi, çünki..."

**Azərbaycanın ikinci prezidenti Əbülfəz Elçibəyin gözlənilmədən Bakını tərk edərək Naxçıvanın Kələki kəndinə getməsindən 22 il keçir. 1993-cü ilin 4 iyununda Surət Hüseynovun başladığı hərbi qiyam iyunun 17-dən 18-nə keçə gecə prezident Elçibəyin Bakını tərk etməsi ilə nəticələndi. Elçibəyin doğma kəndi Kələkiyə getməsindən sonra AXC iqtidarı tamamilə süquta uğradı.**

Elçibəyin qəfil gedişi illər keçsə də müzakirə edilməkdədir. Hələ də Ali Baş Komandanın bu addımı atması birmənalı qəbul olunmur. Bir çoxları hesab edir ki, Elçibəy sonadək dirəniş göstərərdisə, proseslərin qarşısını almaq mümkün idi. Ancaq əks fikirdə olanlar da var. Ayrı-ayrı dönəmlərdə o da vurğulanıb ki, Elçibəyin Kələkiyə gedişi bir neçə tanınmış şəxsin ciddi müzakirəsindən sonra verilmiş qərar olub.

Prezidentin köməkçisi olmuş, prezidentlikdən sonrakı dövrlərdə də Əbülfəz bəyin ömrünün sonuna qədər onun yanında bu görəvi həyata keçirmiş **Oqtay Qasımov** isə 1993-cü ilin iyun hadisələrini xatırladaraq bildirdi ki, o dövrdəki vəziyyəti nəzərə alaraq qiymət vermək daha ədalətlidir: "Bu gündən baxanda çox şeylər deyilə bilər. Amma o zaman situasiya və qüvvələr nisbəti tamam başqa idi. İyun hadisələri, Əbülfəz Elçibəyin Bakıdan Kələkiyə gedişi ilə bağlı məndə olan bilgiləri indiyə qədər mediaya açıqlamışam. Lazım olan çox şeylər deyilib. Məncə, artıq nəsə deməyə ehtiyac yoxdur".

Bir çoxları isə hesab edir ki, 13 iyunda Müdafiə Nazirliyinin Rəhim Qazıyev, Etibar Məmmədov və Rəsul Quliyevin iştirakı ilə keçirilən müşavirəsində verdiyi qərarla, eləcə də İsa Qəmbərin Ali Sovetin sədri postundan istefa verməsi, 15 iyunda isə həmin posta Heydər Əliyevin seçilməsindən sonra AXC hakimiyyətinin taleyi həll olunmuş sayılırdı. Bunu Əbülfəz Elçibəy də görürdü. Müdafiə Nazirliyi bəyanat verməşdi ki, Gəncədə baş verən hadisələr siyasi məsələ olduğuna görə ordu bu məsələlərə qarışmayacaq və kənarda qalacaq. Ordunun öz daxilində olan hansısa qüvvənin vahid komandanlığa tabe etdirilməsindən söhbət gedən bir məqamda belə bir bəyanatın verilməsi təbii ki, məsələnin hansı həddə olduğunu göstərdi. Bu, birbaşa itaətsizlik idi. Dövlətin təhlükəsizliyinə cavabdeh olan bir qurumun belə bir mövqe sərgiləməsi artıq onu göstərdi ki, prezidentin ətrafında həlqə daralır və müqavimət göstərmək imkanları minimuma endirilib. Müqaviməti davam etdirmək imkanları minimum olduğu halda başqa variant yox idi.

AXC hakimiyyətində yüksək vəzifə daşıyan şəxslərdən biri bizimlə söhbətində onu da bildirdi ki, o zaman təbii ki, Bakını tərk etmək variantından başqa variantlar da var idi. Amma o zaman Elçibəy Bakını tərk edəndə düşünürdü ki, bir müddət sonra Bakıya qayıda bilər. O, prezident səlahiyyətlərinin hamısını təhvil vermək niyyətində də deyildi. Əbülfəz Elçibəy Bakıda qalsaydı, ya öldürülməli, həyatına sui-qəsd edilməli idi - çünki onu qoruyacaq mexanizmlər də artıq minimum vəziyyətində idi - yaxud da hansısa təhdid, şantaj, qorxu, yaxud silah gücünə istefaya məcbur etmə məsələləri də ola bilərdi. Bunlar da digər variantlar idi. Amma müqaviməti davam etdirmək üçün əvvəla, qüvvələr həddən artıq qeyri-bərabər idi. Digər tərəfdən Elçibəy milli azadlıq hərəkatı prosesinin yetişdirdiyi, yetişməkdə olan gəncliyi itirməmək üçün bu addımları atdı. Bu gündən baxanda bəlkə də hesab etmək olar ki, hansısa başqa addım atmaq, proseslərin qarşısını almaq olardı. Ancaq heç bir institutun normal fəaliyyət göstərmədiyi vəziyyətdə, digər tərəfdən müharibə aparılan bir şəraitdə bu məsələlərin hamısını eyni zamanda həll etmək müşkül idi. Xüsusilə də o mənada ki, sovet dövründən qalma kadrların böyük əksəriyyəti Moskvaya meylli və bağlı idi.

Elçibəyin xəbərsiz gedişinə gəldikdə, prezident Bakıdan Kələkiyə getməsini bir neçə şəxslə məsləhətləşib. Yəni onun heç kimə demədən gizli şəkildə getdiyi barədə deyilənlər həqiqətdən uzaqdır. Əbülfəz bəyin Kələkiyə gedəcəyindən məlumatlı olanlar var idi. Əbülfəz bəyin Naxçıvana gedəcəyi ilə bağlı bir neçə saat öncə prezidentin şəxsi mühafizə xidmətinin rəisi Oqtay Məmmədova da məlumat verilmişdi. Prezidentin Bakını tərk eləməsi üçün hazırlıq işləri görülmüşdü. Onun aeroportdan Naxçıvana yola salınmasında Dövlət Mühafizə Xidmətinin rəisi Vaqif Axundov da iştirak edib.

❑ **Etibar SEYİDAĞA**

# Əli Kərimli təcili qurultay keçirmək göstərişi verib?



## Partiyadan qovulan sabiq şöbə müdiri ilginc faktlar açıqladı; Seymur Həziyə qarşı açıq hücumlar başlayıb; partiyadan istefalar və qovulmalar gözlənilir...

**Yaxın zamanda AXCP-nin qurultayının çağırılacağı barədə xəbərlər yayılıb. Bu barədə göstərişin birbaşa sədr Əli Kərimli tərəfindən verildiyi deyilir. Bildirilir ki, Milli Şura sədri olmaq xəyalları puça çıxan Kərimli qurum daxilində nüfuzunun gündən-günə zəiflədiyini görüb narazı elektoratın güclənməsinin qarşısını almaq üçün belə bir tapşırıq verib.**

Bu haqda "Yeni Müsavat"a açıqlamasında vaxtilə AXCP daxilindəki narazı qrupun üzvü olmuş, bu səbəbdən partiyadan çıxarılmış Nərimanov şöbəsinin təşkilati məsələlər üzrə sabiq şöbə müdiri Ağaşirin Tanrıverdioğlu məlumat verib: "Əli Kərimli rayon şöbələrinin sədrlərini yığaraq təcili surətdə qurultay keçiriləcəyi barədə göstəriş verib. Hətta deyib ki, konfrans oldu-olmadı qurultay nümayəndələrinin siyahısını hazırlayın. Artıq partiya daxilindəki narazı qüvvələrin ayağa qalxmasından şübhələnib. Bilir ki, qurultay müddəti uzansa, narazılar güclənəcək. Vaxt var idi, biz qurultay tələb edəndə səsimiz eşidilmirdi. Əli Kərimli artıq ayılıb ki, uduzmağa doğru gedir. Qanunsuz olaraq kadr dəyişikliyi edəcək. Ya Suraxanı təşkilatının sədri Bəhruz Həsənlini, ya da, Məmməd İbrahimi təşkilati məsələlər üzrə şöbə müdiri Rafiq Daşdəmirlinin yerinə təyin edəcək. Üç gənc Suraxanıdan çıxarılandan sonra Nərimanova bərpa etdik. O zaman Bəhruz Həsənli ifşa olundu. Üç həftədir bunlar partiyanın Rəyasət Heyətinin toplantısını keçirə bilmirlər. Çünki narazılıq artıq Rəyasət Heyətində də baş qaldırıb, pik həddə çatıb. Haqq sözünü deyən insanlar Kərimliyə lazım deyil. Onun özünə arxa saydığı regionçuluq faktıdır. Öz regionuna yaxın olan insanları partiyada rəhbər vəzifələrə gətirməklə məşğuldur".

**Sabiq şöbə müdiri Milli Şura sədri Cəmil Həsənlinin öz postunu AXCP sədrinə vermədiyini açıqlayıb:** "Cəmil bəy vəzifəsini Kərimliyə verməkdən vaz keçib. Avropada olan narazı qüvvələr də Cəmil Həsənlinin sədr qalmasını istəyirlər. Ona görə də Əli öz ətrafında olan regionçu qüvvələrlə qurultaya getmək istəyir. Fuad Qəhrəmanlı variantı hazırda arxa plana keçib. Ona görə belə alınıb ki, Əli Kərimlinin Milli Şuraya sədr keçməsi mümkünsüz görünür. Xaricdə aktiv siyasətə qayıdan insanlar buna imkan vermirlər. Fərhad Əliyev və Arif Məmmədovun adını çəkə bilərəm. Bu şəxslər Kərimlini yaxşı tanıyırlar. O, nə qədər Arif Məmmədovu təriflədə də, sonda məqsədinə nail ola bilmədi. Məcbur qalıb, yenidən sədr seçilmək üçün qurultay çağırır. Partiya daxilində ən zəif qrupa Həsən Kərimov rəhbərlik edir. Bu qrup çalışır ki, Gözəl Bayramlı Ali Məclisin sədri olsun. Fuad Qəhrəmanlı hələ ki gözləmə mövqeyi tutur. Kərimlinin əsas qorxduğu qrup bizimki idi. Ona görə də, bir iclasda üç gənci birdən çıxardı. Bu birbaşa Seymur Həzinin zəiflədilməsinə yönəlik addım idi. Bir misal çəkim. Seymur Həzi faktoru ortaya çıxan kimi məni partiyadan çıxardılar. Çünki Qubadlıdan idim. Ardınca kəlbəcərli Cavid Musazadə və laçınlı Ehtiram Mehdiyev qovuldu. Bunları birbaşa Əli Kərimli təşkil etdi - Seymur bəyi zəiflətmək üçün. Artıq Kərimli bütün əyalətlərə, öz "zombi"lərinə Seymur Həziyə qarşı hücum əmri verib".

### Ağaşirin Tanrıverdioğlu: "Cəmil Həsənli və Əli Kərimlinin bir-birinə münasibəti mehriban düşmənlərin münasibətlərinə bənzəyir..."

**Ağaşirin Tanrıverdioğlu yaxın zamanlarda AXCP daxilində açıq savaşın başlanacağı anonsunu da verib:** "Rəyasət Heyətində yaxın zamanlarda açıq savaş başlayacaq. Kütləvi istefalar da olacaq. O şəxslər istefa verəcəklər ki, partiyanın sütunları hesab olunurlar. Qovulmalar davam edəcək. Rəyasət heyətində elə şəxslər var ki, Kərimliyə açıq şəkildə istefa verəcəklərini deyirlər. Əli artıq partiyanı MTN sistemi ilə idarə edir. AXCP-də Xalid Qarayev adlı təşkilat şöbəsinin üzvü var. Kərimli bu şəxsi gah narazı elektoratın, gah da, öz "zombi"lərinin içərisinə salır. Bu şəxsdən o qədər istifadə edib ki, artıq Xalid Qarayev başını itirib. 10 gündən çoxdur küsərək partiyaya da getmir. Kərimlinin adamları indidən partiya daxilində şayiələr yayırlar ki, istefa verənlər, qovulanlar hakimiyyətə işləyirlər. Buradan Əli Kərimliyə səslənirəm: Kərimli, sədr seçildiyin vaxtdan indiyədək keçən 15 ildə partiya daxilindən hakimiyyətə işləyən şəxsləri sən təşkil etmisən. Əgər yalan deyirəmsə, gəl 5 dəqiqəlik debat edək. Xalqın qarşısında dediklərimi sübut edərəm. Kərimli, sən öz şəxsi həyatını zənginləşdirmək üçün bu yoldan istifadə etmisən. 2000-ci ilin parlament seçkilərindən bir neçə fakt açıqlayaram, mat qalarsan. Amma mənimlə debata cəsarətin varsa, özün çıx, "zombi"lərin yox".

**Sabiq partiya üzvü AXCP sədrinin mandat almaq üçün Avropa Oyunlarında qızıl medal qazanan idmançıları da təbrik etdiyini qeyd edib:** "Onun hamıya düşmən elan etdiyi Müsavat Partiyasının Avropa Oyunları ilə bağlı mövqeyi bəllidir. Hətta bəyanat da verdilər. Əli Kərimli yarışmanı tanımadı, hətta əleyhinə çıxışlar etdi. Sonda isə birinci yerə çıxan idmançıları təbrik etdi. Belə çıxır ki, məşqçidən xoşun gəlmir, amma idmançılar bomba oğlandır. Bu onu göstərir ki, Əli hakimiyyətlə işbirliyindədir. Bu il mandat almaq üçün dəridən-qabıqdan çıxır. Bu təbrikin arxasında mandat alveri durur".

**AXCP-nin sabiq funksioneri təcili surətdə qurultay keçirilərsə, atılacaq addımlardan da danışıb:** "Əgər Əli Kərimli öz fitnəsindən əl çəkməsə, tezliklə qurultaya getsə, onun uduşu yoxdur. Bu gün Əli özündə güc tapsın, kadr islahatlarına getməsin, üzvləri partiyadan qovdurmasın və qurultay keçirsin. Onda hər şey sübut olunar. Hazırda rayon təşkilatlarının çoxunda istefalar gözlənilir. Qovulmalar realdır. Sonda Əli Kərimli yalnız 5-6 nəfərlə kiçik zalda sədr seçilə bilər. Cəmil Həsənli və Əli Kərimlinin bir-birinə münasibəti mehriban düşmənlərin münasibətlərinə oxşayır. Həsənli deyir ki, tələbəm olub, Kərimli də müəllimi olduğunu deyir. Amma Kərimlinin Milli Şura sədri olmaq məqsədi var idi. Buna tam əminəm. Natiq Əbilovu Qurban Məmmədovun üzərinə saldı. Məqsəd Cəmil Həsənlini zəiflətmək idi".

**A.Tanrıverdioğlu Əli Kərimlinin əsas məqsədinin "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu və Müsavat başqanı Arif Hacılını sıradan çıxarmaq olduğunu da söyləyib:** "Əli Kərimli xislətindən xəbərsiz insanlara sübut etmək istəyir ki, biz Müsavat Partiyasının gününə düşəsi deyilik, biz Müsavat ola bilmərik. Bütün bunların hamısı Rauf Arifoğlu və Arif Hacılının üzərinə hesablanıb. Hədəfdə bu şəxslərdir. Daim bu insanların adı Əlinin dilindən düşmür. Bununla o, cəbhəçiləri başqa istiqamətə yönəldir. Kərimlinin partiya qarşısında verdiyi əsas tapşırıq budur".

❑ **Cavanşir ABBASLI**



# Qaçqın mister(iyaları)

Zamin HACI
zaminhaci@gmail.com

"Şamı söndürüb kresloda yerini rahatlamazdan öncə o, külü ovcunda bir yerə topladı, sakit səslə Sözü dedi. Və qızılgül yarandı"

**(Xorxe Luis Borxes, "Paraselsin qızılgülü")**

Hakimiyyət telekanalizasiyalarından birinin Mingəçevirdə Cəbrayıl rayonundan məcburi köçkün Seymur Səfərovu İngiltərədən gəlmiş turist adıyla efirdə göstərməsi çox simvolik hadisə idi. Özü də rejimin əsas bayramlarından biri olan "15 iyun Milli Qurtuluş Günü". Səfərov videoda çox cavan görünür, ola bilsin Cəbrayıl işğal ediləndə onun uzağı 1-2 yaşı varmış. İndi rayonun işğalının üstündən 22 il keçir, lakin yapistlər Cəbrayılın 22 qarış torpağını da geri qaytarmadılar. Əslində o məqsədlə hakimiyyətə gəlməmişdilər, rejim banisinin hələ 1993-cü ilin yayında dediyi məşhur "Mən heç nə vəd etmirəm" sözləri yadımızdan çıxmayıbdır. Amma bizim yaltaq toplum heç nə vəd eləməyən adamın arxasıyca getdi.

Nəticə də budur: öz torpağımızda turist sayılırıq. O da hələ ingilis dilini bilsən. Yalnız ingiliscə bir-iki kəlmə qırıldadıb "Ooo, şəhəriniz çox yaxşıdır, inkişaf edib, mən belə təmiz dənizi dünyada heç yerdə görməmişəm" tipli sərsəmləmə eləsən adama boğazından asmağa palaz boyda vəsiqə, gün papağı, bir-iki brelok-zad, qarına atmağa da ayranlı dönər verirmişlər. Mən bu yaltaq gəncləri həm qınayıram, həm də qınamıram. Onların həyatı o qədər ağır, çətin, üstəlik, perspektivsizdir ki... Hamısı Azərbaycanda doğulduqları üçün valideynlərini söyürlər, həyatları cansıxıcı, əməkləri ucuz, sevgiləri ölümə məhkumdur. Ən yaxşı halda hansısa oliqarx nazirin, deputat qırıntısının dükanında, əyləncə mərkəzində, restoranında ayda 200-250 manata satıcı, xadimə, ofisiant işləməyə məhkumdurlar. Bu gənc qızları və oğlanları səhər saat 8-dən axşam saat 11-ə qədər - sutkada 15 saat, həftənin 6 günü qul kimi işlədirlər, əvəzində qəpik-quruş verirlər. Ölü iqtisadiyyat, neft buruqlarının xarabalığı altında can verən ölkədə bu minlərlə gəncin heç bir başqa alternativi yoxdur. Qul, kölə üçün nə alternativ olacaq ki?

"Lider TV" ekranında özünü "ingilis turist Ceyms Bonar" kimi təqdim edən *(ya da buna məcbur edilən - kim bilir)* məcburi köçkün Seymur Səfərov bəlkə o anlarda vəcdə gələrək özünü doğrudan ingilis sayırdı. O məşhur rejim filosofunun hər kvartalda bir metr uzunluqda yazdığı cızmaqaralardakı "milli azərbaycançılıq məfkurəsi", "suveren demokratiya" bəlkə elə bu deməkdir - özünü istənilən dünya xalqının yerində təsəvvür eləyə bilirsən? Avropa Oyunlarının açılışında 2 milyon dollarımızı verib gətirdikləri Ledi Saganın oxuduğu mahnıda deyilən kimi: "Xəyal et..." Budur, Seymur bəy də söhbəti tutub və xəyal edib. Taleyin başqa ironiyasına bax ki, məhz həmin gün beynəlxalq jurnalist araşdırma qrupu Londonda hakim ailəyə məxsus çox bahalı villanın görüntülərini yaymışdı. Əgər sənə başçılıq edənlər vaxtaşırı Londonda kef çəkirsə, sən də özünü Mingəçevirdə ingilis turisti sayanda qəbahətdirmi? Bax, and içmişəm, əgər küçədə-bayırda o telekanalizasiyalardan hansısa mənə rast gəlib intervü almaq istəsə özümü dahi ingilis yazıçısı Conatan Svift kimi təqdim edəcəyəm. Bu təhsil sistemi ilə heç çox adam yalanı tutmaz. Siz də, hörmətli oxucular, özünüz üçün müəyyənləşdirin ki, hansı xarabanın turisti olmağa hazırsınız. Yapistlərin səyyar kameraları hər an qarşınıza çıxa bilər. Lap istəsəniz özünüzü şahzadə Çarlz, yaxud, rəhmətlik Diana kimi təqdim edin. Deyin ki, qəzada ölmüşdük, Azərbaycanda Avropa Oyunlarını, analoqu olmayan inkişafı eşidib dirildik. Ölü dirilməyinə inanan cəmiyyətdə çox asan işdir.

Təzəlikcə mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin hardasa açıqlaması vardı: "2014-cü ildə Azərbaycana 2 milyon yarım turist gəlmişdir". Biz bunun gop olduğunu onsuz da bilirik. Aeroportdan statistikanı götürürlər, hər il Rusiyadan ev-eşiyinə, arvad-uşağına baş çəkməyə gələn azərbaycanlıları turist kimi sayırlar, bu yolla belə uydurma rəqəm düzəlir. Amma hərdən görünür "ingilis turist" istehsalı da lazım olurmuş.

Adam təəccüblənir ki, bunlar hər şeyin, hətta turistin də saxtasını qayırdılar, amma nə əcəb indiyəcən saxta bir qələbə qayırmırlar. Örnək üçün, hansısa dağda Şuşanın, Cəbrayılın maketini qoyub videoya çəkmək, "təzə almışıq" deyib forslanmaq çətindirmi? And içərəm ki, camaat buna inanar. Avamlıq o dərəcədədir.

# AŞ PA-dan şok qərar: hakimlərimiz geri göndərildi

**AŞ PA Komitəsində Avropa Məhkəməsinə Azərbaycandan hakimliyə irəli sürülən üç namizəd kifayət qədər yaxşı təcrübəyə malik olmadığından onların namizədlikləri qəbul edilməyib.**

## Avropa Məhkəməsinə Azərbaycandan hakimliyə irəli sürülən üç namizəd "kifayət qədər yaxşı təcrübəyə malik olmadığından" qəbul edilməyib

Məlumata görə, irəli sürülən namizədlər - Avropa Məhkəməsində Azərbaycan hökumətinin nümayəndəsi Çingiz Əsgərov, Bakı Apelyasiya Məhkəməsinin hakimi Aygün Abdullayeva və 1 saylı Bakı İnzibati İqtisad Məhkəməsinin hakimi Vüsalə Baxışova Avropa Şurası İnsan Haqları Məhkəməsi üçün uyğun namizəd hesab olunmayıblar. Məhkəmə-Hüquq Şurası Avropa Məhkəməsinə Azərbaycan Respublikasına münasibətdə hakimin seçilməsi üçün namizədlərin irəli sürülməsinə sentyabrın 26-da start verib. Oktyabrın 15-də namizədlərin irəli sürülməsi müddəti başa çatıb. Hazırda Məhkəmə-Hüquq Şurası namizədlərin sayını və kimliyini dəqiqləşdirir.

1973-cü il təvəllüdlü Çingiz Əsgərov Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin sektor müdiri və 2003-cü ildən Azərbaycanın İnsan Hüquqları üzrə Avropa Məhkəməsində daimi nümayəndəsidir. Azərbaycanın Avropa Məhkəməsindəki hazırkı hakimi Xanlar Hacıyevin səlahiyyət müddəti 2015-ci ilin oktyabr ayının 31-da başa çatır.

Xanlar Hacıyev Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi vəzifəsində 2003-cü ildən çalışır. 2008-ci ildə o, yenidən bu vəzifəyə seçilib. Avropa Konvensiyasına və Avropa Məhkəməsinin yeni qaydalarına əsasən, hakim yalnız bir dəfə 9 illiyə seçilə bilər. Avropa Məhkəməsi ənənələrini davam etdirmək və tərkibin birdən-birə tamamilə dəyişməsinin yarada biləcəyi problemləri önləmək üçün əvvəllər seçilmiş hakimlərin səlahiyyət müddəti, o cümlədən X.Hacıyevin səlahiyyətləri iki il uzadılmışdı. Avropa Məhkəməsinin hakimi kimi səlahiyyət müddətim 2015-ci ilin oktyabr ayının 31-də başa çatır və o, yenidən namizəd ola bilməz.

1956-cı ildə Gəncədə anadan olan, indiki Bakı Dövlət Universitetinin hüquq fakültəsinin məzunu, hüquq elmləri doktoru Xanlar Hacıyev 1988-1990-cı illərdə SSRİ Ali Məhkəməsində baş məsləhətçi, 1990-92-ci illərdə Azərbaycan Ali Məhkəməsinin hakimi, 1992-1993-cü illərdə Azərbaycan Ali Məhkəməsi sədrinin birinci müavini, 1993-1998-ci illərdə Ali Məhkəmənin sədri, 1998-2003-cü illərdə Azərbaycan Konstitusiya Məhkəməsinin sədri vəzifələrində çalışıb.

**AŞ PA-da Azərbaycan nümayəndə heyətinin üzvü, deputat Fazil Mustafa "qafqazinfo"ya bildirib ki, adları çəkilən hər üç şəxs layiqli namizədlərdir:** "Sadəcə, seçim məsələsində nəzərdə tutulan əsas meyarlar hakimlərin hökumətin tabeliyində işləyib-işləməməsi, icra strukturları tərəfindən nə dərəcədə dəstəklənməsi ilə bağlıdır. Əgər hakim hakimiyyətə yaxındırsa, bu, Avropa Məhkəməsi üçün məqbul sayılmır. Onlar daha müstəqil namizədlərə önəm verirlər. O baxımdan da AŞ PA bizim namizədlərin siyahısını geri çevirib. Qeyd edim ki, Çingiz Əsgərov neçə illərdir ki, bu sahədə çalışır. İndi onun namizədliyi AŞ PA-da qəbul edilməyibsə, burada hər hansı məqsədyönlü addımlar da ola biləcəyini istisna etmirəm".

**Onun sözlərinə görə, eyni meyarlar Ermənistanla bağlı tətbiq edilmir:** "Siyahıdan keçən namizədlər tamam başqa kontekstlərdə seçilir. Həmin şəxs də Avropa Məhkəməsinə müraciət edən şəxslərin vəkili olub. Amma ona irad bildirilmir, çünki o, hakim olanda özünün tərtib etdiyi işlərə baxıb".

❑ **"Yeni Müsavat"**



# Bakı və İrəvan üçün yeni Strasburq sınağı

## "Ermənistan Dağlıq Qarabağı işğal edib" ifadəsinin yer aldığı qətnamə layihəsi AŞ PA-nın yay sessiyasına çıxarılır; ermənilər təlaşda, Bakı isə...

**Bir neçə gündən sonra Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yay sessiyası öz işinə başlayacaq. Sessiyanın Azərbaycanla bağlı xüsusi əhəmiyyəti odur ki, AŞ PA gündəliyinə Azərbaycanla bağlı məsələ də daxildir. Söhbət məruzəçilər - Pedro Arqamunt və Tadeuş İvinskinin hazırladıqları "Azərbaycanda demokratik institutların fəaliyyəti" adlı məruzədən gedir.**

Bir neçə gün öncə AŞ PA-nın Monitorinq Komissiyasında məruzə müzakirə edilib və əsasən bəyənilib. Bu da o deməkdir ki, sənəd layihəsi AŞ PA sessiyasında qətnamə kimi qəbul olunacaq. Sənəddə isə belə bir cümlə də yer alıb: "Ermənistan Dağlıq Qarabağı işğal edib".

Erməniləri ən çox narahat edən də məhz bu cümlədir. Düşmən ölkə nəşrləri artıq məsələni gündəmə gətirərək həyəcan təbili çalmağa, Ermənistan nümayəndə heyətinin üzvlərini "divara dirəməyə" başlayıb. Məntiq də budur ki, "necə olur insan haqlarının durumuna görə Avropa ilə, o cümlədən Avropa Şurası ilə gərgin münasibətlərdə olan Bakı sənədə belə bir cümləni ora salmağa nail olub"?

Guya Azərbaycanda insan haqlarının vəziyyətinin torpaqlarımızın işğal altında olması reallığına hansısa təsiri, isti-soyuqluğu varmış. Guya bir ölkədə təməl insan haqlarının durumu ağırdısa, onda o ölkəyə təcavüz etmək, onun torpaqlarını tutmaq, BMT qətnamələrini də qulaqardı eləmək olar. Və ermənilərin də "insan haqlarının pozulduğu Azərbaycanın ərazisini işğal eləməsi" onların halal-haqqı imiş.

İş də ondadır ki, düşmən ölkənin deputat nümayəndə heyətinin üzvləri məkrli üsullarla - bir problemi *(insan haqları, demokratiya)* şəkildə digər problemə (işğal faktı) qatmaqla həmin cümlənin sənəd layihəsindən çıxarmaq niyyətindədirlər və bu yöndə ciddi səylərə başlayıblar.

Onların, eləcə də bəzi erməni siyasiləri və ekspertlərinin açıqlamalarından aydın olur ki, yay sessiyasında və sessiyaya qədərki müddətdə düşmən ölkə təmsilçiləri Azərbaycan əleyhinə antitəbliğatı məhz insan haqları, siyasi məhbuslar üzərində quracaq və bununla da sənədə səs vermək istəyən avropalı deputatların sayını azaltmağa, yaxud onların bitərəf qalmasına çalışacaqlar ki, qətnamə ən azından bu formada qəbul olunmasın.

***

Bunu Azərbaycan nümayəndə heyətinin indidən ciddiyə alması olduqca vacibdir. Kontur-təbliğat üçün isə imkanlar yox deyil. Hər halda, Azərbaycanda təməl haqlarla bağlı durum nə qədər ürəkaçan olmasa da, Ermənistanda da yaxşı deyil. Orada da siyasi məhbuslar var.

Elə üç gün öncə erməni siyasi dustaqlardan birinin - siyasi motivlərlə 6 illik həbs cəzası almış Şant Arutyunyanın oğlu Şaqen Arutyunyan əlində hakimiyyəti ittiham edən plakat tutaraq Ermənistan-Portuqaliya futbol matçının 44-cü dəqiqəsində meydana girmiş, polislər tərəfindən zorla saxlanmışdı.

Həmin plakatda bu sözlər yazılmışdı: **"Freedom to Shant Harutyunyan and all political prisoners of Armenia!" ("Şant Arutyunyana və Ermənistanın bütün siyasi məhbuslarına azadlıq!")** Şaqen Arutyunyan bir saat polis şöbəsində saxlandıqdan sonra buraxılmış, mediaya açıqlamasında isə belə demişdi: **"Ermənistana dünyanın ən yaxşı futbolçusu Kriştianu Ronaldo gəlib, dünyanın bütün diqqəti ona yönəlib, ona görə də matçın gedişində siyasi məhbuslar məsələsini qaldırdım..."**

Bundan əlavə, hazırda Ermənistan türmələrində həmin Şant Arutyunyan da daxil, bir neçə siyasi dustaq haqsız tutulmalarına etiraz olaraq 5 gündür aclıq aksiyası keçirirlər...

***

Azərbaycan nümayəndə heyəti ermənilərin mövqelərini zəiflətmək üçün bu kimi sanballı faktlardan yararlana, həmin siyasi məhbusun oğlunun İrəvanda futbol meydanına əlində məlum plakat tutmuş fotosundan, video-linkindən *(plakatı sonra portuqaliyalı Ronaldo da əlində tutaraq baxıb)* istifadə edə bilər.

Ermənilər özləri futbolu, idmanı siyasətə qatıblarsa, niyə biz də qatmayaq və bundan onların özləri əleyhinə yararlanmayaq ki.

❑ **Siyasət şöbəsi**

**26 illik qəzetimizi kommunist ruslar, Mütəllibov iqtidarı, Surət Hüseynov, Cəlal Əliyev, Əli İnsanov... 23 illik YAP iqtidarı ... məhv edə bilmədi; başım qarışıb, diqqətdən qaçırtmışam; aralığa salıb, Cəmil Həsənli bir status yazıb, Əli Kərimli də ona başlıq qoyub, "Yeni Müsavat" da məhv olub.**
**Ay sizi Dooşan yesin...**
**Azərbaycan türmələrində, tariximizin uçqunları altında, hətta qara torpağın altında bir xeyli sayda "Yeni Müsavat" qəzetini "məhv edənlər" var...**

**Rauf ARİFOĞLU**



# Professorun pula tüpürməkliyi...

Məzuniyyətdəyəm. Son illərdə ilk dəfədir ki, gündəmi izləmək fürsətim azdır; bu səbəbdən hörmətli Cəmil Həsənlinin facebook statusunun "Azadlıq" qəzetindəki təqdimatına gec baxdım: "Cəmil Həsənli "Yeni Müsavat"ı məhv etdi" başlığı o qədər əyləncəli gəldi ki...



Ölənlərə Allah rəhmət etsin, qalanların qapısını Allah açsın...

Bu sıraya Şurəvilər də qoşuldular.

Özləri məhv olmuş, siyasi həyatları bitmiş biriləri 100 minlərlə tiraja malik *(musavat.com, minval.az, musavat.com.ru)* , bir neçə dildə nəşr olunan bir media qrupunu necə məhv edə bilər ki?

Sən həm də bir bunların hədəfinə bax, əxlaqına, söz azadlığına, mediaya münasibətinə, jarqonlarına bax.

Bunlarmı iqtidar olacaqdılar, bu çatlaq professormu prezident olacaqdı.

Əslində özünüifşa mətni olan o statusda bizim iddiaların birinə də cavab verilməyib.

Sayın professor, hörmətli Kərimli, sizdən soruşulur, ona cavab verin: **NİYƏ "ƏSİL MÜXALİFƏT" OLARAQ AVROPA OYUNLARINI BOYKOTA ÇAĞIRMADINIZ?**

Buna cavab verin, yoxsa "məhv" oldunuz.

Başqa iddialar da var. Hörmətli professor ziqzaqlı həyatı boyunca bir neçə dəfə öz təşkilatını və liderini satıb! İcazəli parlamentə mandat alıb, həm də iki sezon; bu rejimin banilərinə kitab yazıb, hakimiyyəti tam və ipinə-sapına qədər dəstəkləyib...

Biz bir dəfə də deputat olmadıq, rejimə və onun banilərinə kitab yazmadıq, liderimizi satmadıq.

Bunlar deyir ki, hər kəs, xüsusilə də "Yeni Musavat" qəzeti, bütün gücü ilə onların maraqlarını, çıxarlarını, mövsümdə bir dəyişən kurslarını ... dəstəkləməli, ayarlarını onlara görə yeniləməli, onlar kimi yazmalı, bəyanat verməli, danışmalı...

Əks halda, xain, satqın, xidmətçi adlandırırlar.

****

Cəmil Həsənli nəinki bu rejimə, onun baş ideoloqu Ramiz Mehdiyevə nökər olub, onun birbaşa mirzəliyini edib... Bu adam pul-para naminə korrupsioner Fərhad Əliyevin maraqlarını təmsil edib, onun paralarını mediaya, müxalifətdəki və iqtidardakı ayrı-ayrı siyasətçilərə paylayıb, qarşılığında dəstək satın alıb!

Bu adam siyasi maklerdir, korrupsioner nökəridir.

Hörmətli Cəmil Həsənli bilmir ki, siyasi məhv necə olur...

*****

Bir professor tanıyıram. Pul sayanda, əvvəlcə barmaqlarını ucuna yüngülcə tüpürür. Sonra başlayır səslə saymağa...

O professor bir korrupsionerdən aldığı paraları qəzetlərə çatdırmaqda görəvli idi. 2006-cı ildə...Korrupsioneri öldürülən jurnalistin qatili elan edəcəkdilər, hələ də həbsdə qalacaqdı....

Professoru, portfelini dolduraraq, redaksiyalara arestantın qardaşlarından biri müşayiət edirdi. Qapıdan içəri salıb, bayırda maşında gözləyirdi. Ki, qıraqda kupyorları dəyişdirməsin, atmasın, dalına keçməsin...

Lakin professor da professor idi...

Ailədən manatla aldığı paçkaları qəzet redaksiyalarında sayıb, şifahi olaraq, dollarla hesablayıb, qəzetlərə də, korrupsiyaçının ailəsinə də atmağı özünə yaraşdırırdı: "Belə verdilər..." Sonra "qırdığı" məbləği pencəyinin qoyun ciblərinə basırdı...

Bu ona çox yaraşırdı. Nəinki indiki işi...

O zaman manatın dollara nisbəti xeyli fərqli idi. 1 manat 87 sent idi. Barmaqlarına və paraya tüpürə-tüpürə, onları səslə sayıb, hər paçkadan 13 dənə yüzlük qırpışdırırdı.

50 min manatdan 5X1300 =6500 manat....

Allahın "kameraları" axirətdə işləyir... Lakin belə şeylər heç də hər zaman axirətə qalmır.

Bir gün ortaya bir video çıxsa və o professor barmaqlarına tüpürə-tüpürə para saydığı yerdə görüntülənsə, əcəba, kim məhv olar?

Və Əli Kərimli o videonu qəzetinin saytında yayarmı?

Ona hansı başlıq qoyar...

****

Qorxmayın, qırışmallar, yoxdu belə video... Amma bir olsaydı, derim....

****

Cəmil Həsənli zamanında o korrupsioner nazir olarkən Əli Kərimliyə də, hər ay 30 min dollar olmaqla, para daşıyıb. 1990-2000-ci illərdə AXC-dən və "Azadlıq" qəzetindən hakimiyyətə bütün transferlər, satınalmalar (özü də daxil) onun sayəsində gerçəkləşib. Təbii ki, bunlardan o zamankı iqtidarın xüsusi xidmətlərinin də xəbəri olub.

Həsənli dövlətin gizli görəvlisi kimi Elçibəylə İsa Qəmbər arasında Əli Kərimli problemi yetişdirmək proqramında əsas fiqur kimi mövcud olub. O, "müxalifətdəki və hakimiyyətdəki islahatçıların ortaq iqtidarı" projesinin əlamanı idi...

Elçibəy dünyasını dəyişəndən sonra iqtidar Cəmil Həsənlini açıq şəkildə qucağına aldı.

O zaman bəlli oldu ki, bir çoxlarının siyasi bəkarəti çoxdan alınıbmış.

İndi onların hamısı müxalif və demokratik düşərgəyə əxlaq dərsi keçir...

Gizli görəvli isə yenə də iş başındadır...

## Müsavatdan açıqlama: "Avropa Oyunlarını boykot çağırışı etməmişik"

### Gülağa Aslanlı: "Müsavatın çağırışı Avropa ölkələrinin liderlərinə olub"



Gülağa Aslanlı

**"Müsavat Partiyası Avropa Oyunlarının boykot edilməsi barədə heç bir çağırış etməyib. Müsavat Partiyası boykot haqqında qərar da verməyib". Bu barədə "Yeni Müsavat"a açıqlamasında Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirib. Gülağa Aslanlı fikrini onunla əsaslandırıb ki, Müsavat Partiyasının Divanı Avropa ölkələrinin liderlərinə Avropa Oyunlarının açılış mərasimində iştirak etməmələri üçün çağırış edib. Divanın bu çağırışı isə mediada da yayılıb.**

Lakin o vaxtdan indiyə qədər bir çoxları ya bilməməzlikdən, ya qərəzdən, qəsdən təhrifə yol verməkdə-Müsavat Partiyasının guya Avropa Oyunlarının boykot edilməsi barədə çağırış etdiyi, qərar qəbul etdiyini bəyan eləməkdədirlər: "Biz aydınlıq üçün bir daha bəyan edirik ki, Müsavatın çağırışı Avropa ölkələrinin liderlərinə olub və çağırışda onlar açılış mərasimində iştirak etməməyə çağırılıblar. Burada söhbət həmin ölkələrin Avropa Oyunlarına idmançılar göndərməməsi və oyunları boykot etməsindən getmir. Məlumatsız insanlar axtarış verib Müsavat Divanının yaydığı informasiya ilə tanış olsunlar. Onda görəcəklər ki, həqiqət necədir".

**G.Aslanlı onu da bildirdi ki, əslində Müsavatın çağırışı öz yerini tapıb:** "Diqqət edirsinizsə, demokratik Avropa ölkələrindən heç birinin dövlət başçısı açılış mərasiminə qatılmadı. Vladimir Putinin açılış mərasimində iştirak eləməsi isə Azərbaycanla olan siyasi maraqları ilə bağlıdır".

**"Siz düşünürsüz ki, nüfuzlu Avropa ölkələrinin liderlərinin açılış mərasiminə gəlməməsində Müsavat Partiyasının çağırışı rol oynayıb" sualını G.Aslanlı belə cavablandırdı:** "Bu iddiada olmaq yanlışlıq olardı. Biz hesab edirik ki, gəlməmələrinə həm də Müsavat Partiyasının çağırışının təsiri olub. Hələ gedib-getməmək haqqında yekun qərara gələ bilməyən liderlərin son qərarına Müsavatın çağırışının təsir elədiyini düşünürəm".

"Zaman keçdikcə, Müsavat Partiyasında "kaş belə bir çağırış etməyəydik" kimi fikir yaranırmı" sualına Gülağa Aslanlı belə cavab verdi: "Qətiyyən xeyr. Müsavat Partiyası qərarlarını, çağırışlarını emosiya ilə yox, düşünüb-daşınaraq, müzakirə edərək qəbul edir".

❑ **E.SEYİDAĞA**

## Mühacir müsavatçılar bəyanat yaydı



Eldəniz Yusibov

**Musavat.com saytına Hollandiyada yaşayan mühacir Eldəniz Yusibovdan bəyanat daxil olub. Bəyanat xaricdə yaşayan müsavatçılar tərəfindən hazırlanıb.**

Sənəddə bildirilir ki, Müsavat Partiyasının Avropa ölkələrinin başçılarına I Avropa Oyunlarını boykot etmək çağırışı, Müsavat başqanı Arif Hacılının ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta ilə görüşü və onun Avropa Parlamentində "Şərq tərəfdaşlığının gələcəyi" mövzusunda keçiriləcək müzakirələrə dəvət edilməsi hakimiyyətlə yanaşı onun alətlərini də ciddi narahat edib: "Bu səfərə, keçiriləcək görüşlərə kölgə salmaq ucun növbəti qarayaxma kampaniyasına start verilib. İqtidar ənənəvi olaraq yenə öz arsenalında olan qulbeçələrindən, bu dəfə konkret olaraq Səxavət Əlisoydan istifadə edir. Səxavət Əlisoy isə Müsavat Partiyasının rəhbərliyi ilə bərabər mühacir müsavatçıları da hədəfə alıb və iddia edir ki, guya Avropada olan mühacir müsavatçılar Arif bəyə pul verir. Bu məlumatın da ona sosial şəbəkədə fəaliyyət göstərən "Mühacir Müsavatçılar" qrupunun üzvlərindən biri tərəfindən ötürüldüyünü iddia edir.

"Mühacir Müsavatçılar" qrupu üzvləri olaraq bəyan edirik ki, Müsavat Partiyasının ölkə daxilində və beynəlxalq aləmdə artan nüfuzundan narahat olan rejim tərəfindən idarə olunan növbəti qarayaxma kampaniyasıdır və Səxavət Əlisoyun vasitəsilə həyata keçirilir. Eyni zamanda da bildiririk ki, bu kimi qarayaxmalarla nə Müsavat Partiyasını, nə də müsavatçıları haqq yolundan döndərmək mümkün olacaq".

❑ **SEVİNC**

## Novruz Məmmədov "Euronews"u ittiham etdi



Novruz Məmmədov

**Prezident Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov "Euronews" televiziya kanalını Avropa Oyunlarını passiv işıqlandırmaqda ittiham edib.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə şöbə müdiri tvitter hesabında yazıb:

""Euronews" TV kanalı qərəzsiz media orqanı olduğunu göstərə bilmədi. Avropa ölkələrinin idmançılarının iştirak etdiyi möhtəşəm açılış mərasiminə ayırdığı vaxt "Euronews"un mahiyyətini ortaya qoydu

Amma bu kanal 2 "gay"in evlənməsi xəbərini 1 həftə saatda 4 dəfə göstərməyi vacib hesab edir".

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015



# Rizvan Vahabovla bağlı daha bir ittiham

## Neft Kəmərləri İdarəsinin sabiq rəisindən şikayətçi olanlar onun 2005-ci ildə Rəsul Quliyevə 300 min dollar pul verdiyini xatırladır

**"Yeni Müsavat"ın ötən saylarında Neft Kəmərləri İdarəsinin (NKİ) sabiq rəisi Rizvan Vahabov haqda yazılar dərc etmişdik. Redaksiyamıza müraciət edən Sevinc Rəcəbova, Təranə Hüseynova, Anar Əsədov, Vüsalə Xamıyeva, Zamiq Əhmədov, Əhliman Alıyev və Adil Kazımov bildirmişdilər ki, keçmiş məmurun qanunsuz hərəkətləri bu gün də davam edir.**

Məsələ bundadır ki, şikayətçilər 2011-ci ildə Murtuza Muxtarov 145 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahələrini və mənzilləri alıblar. Sonradan onlar Rizvan Vahabovun qanunsuz iddiaları ilə rastlaşıblar. Şikayətçilər redaksiyaya R.Vahabovla bağlı olan və ona yönəlik çox ilginc ittihamlar yer alan materiallar təqdim ediblər. Ötən sayımızda NKİ rəisi olaraq R.Vahabovun Azərbaycan benzinini Ermənistana göndərməsinin bəzi təfərrüatlarını təqdim etmişdik. Şikayətçilərin redaksiyamıza təqdim etdikləri materiallar sırasında R.Vahabovla eks-spiker Rəsul Quliyevin əlaqələrindən bəhs edən materiallar da var. Bu mövzuda 19 may 2015-ci ildə "Unikal" qəzetində "Rizvan Vahabovun adı 200 minlik maxinasiyada" sərlövhəli yazı dərc olunub.

Həmin yazıda NKİ-nin sabiq rəisinin hakimiyyətlə problemləri üzündən ölkədən getmiş Rəsul Quliyevlə əlaqələrindən, həlledici məqamlarda R.Vahabovun R.Quliyevə dəstək verməsindən söhbət açılır.

**Həmin yazıdan sitat:** "Xüsusən də onun 2005-ci ildə Rəsul Quliyevin gəlişi üçün pul verməsi ilə bağlı iddialar hələ də təkzib olunmayıb. Burdan da aydın olur ki, Rizvan Vahabov həmin dövrdə 300 min dollar xərcləyib. İddiaya görə, Rəsul Quliyev hakimiyyətə gələrsə, Rizvan Vahabov ARDNŞ prezidenti postuna təyinat alacağı təqdirdə əlavə 30 milyon dollar da verəcəkmiş. Biz bu iddialardan yola çıxıb bəzi maraqlı qənaət, fərziyyə və ehtimallarla çıxış etmişdik; yazı dərc olunduqdan sonra isə redaksiya rəhbərliyi ilə əlaqə saxlayan Rizvan Vahabov barəsindəki iddiaları yalan adlandırıb. Amma R.Vahabov konkret arqumentlər gətirərək təkzib etməyib".

Maraqlıdır ki, iddiaların yalan olmasını deyən ARDNŞ-in sabiq idarə rəisinin hansı səbəbdən həmin "yalan və iftiraların müəllifi"nə qarşı hüquqi yollara baş vurmayıb.

**Qəzet R.Vahabovun qanunsuz əməllərinin bununla bitmədiyini qeyd edir, R.Vahabovun Yasamal rayonu, M.Muxtarov küçəsi, 145 saylı binanın bir qrup sakininin əmlakına əl qoymaq istəyindən yazır:** "Bir müddət əvvəl sakinlər prezident İlham Əliyevə, Heydər Əliyev Fondunun prezidenti ölkənin birinci xanımı, millət vəkili Mehriban Əliyevaya və ölkənin hüquq-mühafizə orqanlarının rəhbərlərinə müraciət ünvanlamışdılar. Müraciətdə bildirilir ki, ARDNŞ-in Neft Kəmərləri İdarəsinin sabiq rəisi, YAP Səbayel rayon təşkilatının İdarə Heyətinin üzvü, iş adamı Rizvan Vahabovun "dələduz əməlləri" nəticəsində onların mülkiyyət hüquqları pozulub. Belə ki, Bakı şəhəri Yasamal rayonu, 442-443-cü məhəllə ilə M.Muxtarov 145 və Ə.Hüseynzadə küçələrinin kəsişməsində "Günəş" İKF-yə təhkim olunmuş torpaq sahəsində ticarət mərkəzinin tikintisi nəzərdə tutulsa da, sonradan "Volbak" MMC-nin vəsaiti hesabına tikilmiş binanın təyinatı dəyişdirilmiş və həmin ərazidə yaşayış binası tikilmişdir. Tikintini aparan "Volbak-H" MTK şikayətçilərlə müqavilə bağlayıb və şikayətçilər tikilən 6 mərtəbəli binanın payçıları qismində çıxış ediblər".

**Qəzet "Günəş" İKF-nin Rizvan Vahabovun 80 yaşlı qayınanası Anna Qoloveşkinanın adına sənədləşdirildiyini qeyd edir:** "Günəş" İKF Rizvan Vahabov tərəfindən idarə olunur və daha əvvəl də "Günəş" İKF Rizvan Vahabov tərəfindən başqa bir sahibkardan dolandırıcılıq yolu ilə əldə edilib. Faktiki olaraq Rizvan Vahabovun "Günəş" İKF-ni "oğurlayaraq" qayınanasının adına keçirdiyi iddia olunur. İddiaya əsasən sözün həqiqi mənasında milyoner olan keçmiş məmur Rizvan Vahabovun sərmayəsinin və mülklərinin böyük bir hissəsini 80 yaşlı qayınanasının adına rəsmiləşdirərək idarə edir. Belə ki, Rizvan Vahabovun Bakı şəhərində yanacaq doldurma məntəqələri, istehsalat sahələri, Xətai rayonunda 680 kv.m, 1460 kv.m və 5543,4 kv.m torpaq sahəsi, Badamdarda 3 ədəd villası, Qaradağ rayonunda milyonlarla manat qiyməti olan bağ evi, Qaxda, Nabranda, Xaçmazda, Qubada istirahət mərkəzləri, otellər, villalar məhz 80 yaşlı qayınanası Anna Qoloveşkinanın adına rəsmiləşdirilib. Lakin bütün bu sadalananların hamısı Rizvan Vahabovun mal varlığının tam əks etdirmir. Bildirilir ki, Rizvan Vahabov bütün bu vəsaitləri ARDNŞ-in Neft Kəmərləri İdarəsinin rəisi işlədiyi zaman dövlət vəsaitlərini mənimsəməklə əldə edib. Elə bu üzdən də tutduğu vəzifədən azad olunub. Lakin buna baxmayaraq, Rizvan Vahabov himilərinin səyləri nəticəsində cinayət məsuliyyətindən yaxa qurtararaq mənimsədiyi milyonları qayınanasının adına rəsmiləşdirə bilib".

**Qəzetdə son illərin ən səs-küylü qətllərindən birində Rizvan Vahabovun adının hallandığı da qeyd olunur. "Unikal" qəzeti yazır:** "Rizvan Vahabovun adı "AzərRoss" cinayətində hallanıb. O, cinayətin sifarişçisi olaraq həbs olunan Hümmət Məmmədovun, cinayətin qurbanı Əflatun Piriyevin və "Avesta" Şirkətlər Qrupunun prezidenti Hacı İbrahim İbrahimovun şəriki olub. Elə yuxarıda adı çəkilən "Volbak" MMC-nin və "Volbak-H" MTK-nın təsisçiləri "AzərRoss" cinayətində öldürülən Əflatun Piriyev və Rizvan Vahabov olublar.

Əflatun Piriyev öldürüldükdən sonra isə Rizvan Vahabov təsisçiliyi qayınanasının adına keçirərək digər payçılarla bağlanmış müqavilələrin qüvvədən düşməsi haqda saxta sənəd əldə edib. Bundan sonra isə çoxsaylı məhkəmə proseslərinin keçirilməsinə baxmayaraq, 145 saylı binanın sakinlərinin mülkiyyət hüquqları bərpa olunmayıb. Məhkəmə Ekspertizası Mərkəzinin 19 fevral 2013-cü tarixli 17297/17471 saylı rəyində Anna Qoloveşkinanın "Volbak" MMC-nin hesabına köçürdüyü 3482000 manat və 200 min dolları ilə bağlı kassa-mədaxil orderi saxta elan olunsa da, payçıların mülkiyyət hüququ məhkəmə tərəfindən təmin olunmayıb".



Yada salaq ki, "Yeni Müsavat"a müraciət edən vətəndaşlar 2011-ci ildə Murtuza Muxtarov 145 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahələrini və mənzilləri alıblar. Az sonra isə R.Vahabov qayınanası A.Qoloveşkina vasitəsi ilə vətəndaşların qanuna uyğun şəkildə əldə etdikləri əmlakları onlardan almağa çalışıb. Vətəndaşlar həmin əmlakları qanuni şəkildə əldə etmələrini təsdiqləyən çıxarışları da redaksiyamıza təqdim ediblər. Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində aparılan araşdırma zamanı məlum olub ki. R.Vahabovun 80 yaşlı qayınanasının məhkəmələrə təqdim etdiyi sənədlər saxtadır. 4 il davam edən məhkəmə çəkişmələrindən sonra iş növbəti dəfə Ali Məhkəməyə göndərilib. Vətəndaşlar inanırlar ki, bu məhkəmə instansiyasında nəhayət ki, ədalətli qərar veriləcək. Bununla da R.Vahabovun bir qanunsuzluğunun qarşısı alınmış olacaq...

❑ E.MƏMMƏDƏLİYEV

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015

**2015-ci ilin az qala tən yarısı başa çatmaqdadır. Bu müddətdə Dağlıq Qarabağa dair danışıqlarda demək olar, heç bir ciddi hərəkətlilik qeydə alınmayıb. Yalnız ATƏT-in Minsk Qrupunun regiona səfərləri və onların münaqişə tərəflərinin rəsmiləri ilə görüşləri haqda ümumi növbəti bəyanatlar, problemin həllinə ümid ifadə edən ənənəvi açıqlamalar eşitməli olmuşuq.**



Cozef Pressel



# Qarabağ məsələsində Rusiya amili önə keçir

## Ancaq problem 20 il öncə harada idisə, hələ də ordadır; amerikalı keçmiş həmsədr nədən narahatdır? **Ekspert:** "Ən azı 7 rayonun geri qaytarılması məsələsində ortaq baxış formalaşıb..."

Doğrudur, Ukrayna böhranı Qarabağ mövzusuna öz neqativ təsirini göstərib və göstərməkdədir. İstənilən halda belə getsə, 2015 nizamlama tarixinə ən sönük il kimi düşəcək. Yenə müəyyən ümid qığılcımı yaranmışdı ki, hərbi əməliyyatlardan qaçmaq və danışıqlar prosesini dalandan çıxarmaq üçün növbəti əlverişli bir şans yaranıb. I Avropa Oyunları ilə bağlı Rusiya və Türkiyə prezidentləri - Vladimir Putin və Rəcəb Tayyib Ərdoğanın Azərbaycan paytaxtında bir araya gəlməsinə bəslənən ümidlər nəzərdə tutulur.

Məlumdur ki, üç prezident Bakıda ikitərəfli formatda görüşlər keçirib. Ölkə başçıları iki və çoxtərəfli əlaqələrin mövcud durumundan məmnunluq ifadə edib, bu əlaqələri daha yüksəyə qaldırmağın zəruriliyini bəyan ediblər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Bakıda Azərbaycan və Rusiya prezidentlərinin görüşündə Qarabağ münaqişəsinə də toxunulduğunu söyləyib.

Lakin əfsus ki, Bakı fürsəti də postsovet məkanının ən "uzunömürlü" münaqişəsinin həllini yaxınlaşdırmaq üçün istifadə olunmadı. Hər halda, kənardan, görüşlərlə bağlı verilən açıqlamaların yaratdığı ilkin təəssürat belədir ki, məsələyə yanaşmada şimal qonşumuzun yanaşmasında prinsipial dəyişiklik yoxdur.

***

Bəzi siyasi şərhçilər hesab edir ki, son vaxtlar Rusiyanın Dağlıq Qarabağ məsələsinə təsir imkanları artıb. Belə hesab edilir ki, Kreml konfliktin həllində indi daha ciddi rol oynaya bilər, nəinki digər həmsədr ölkələr. Belədirmi? Beləsə, o zaman Rusiya əlindəki imkanlardan niyə yararlanmır və yaxud yararlanmaq istəmir?

Bu xüsusda ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri və **Amerikanın Özbəkistandakı sabiq səfiri Cozef Presselin** maraqlı yanaşması var. Musavat.com xəbər verir ki, onun qənaətincə, problemin həllində işıq ucu görünmür və bunun da mühüm səbəbi həm münaqişə tərəflərinin, həm də Rusiyanın mövqeyi ilə bağlıdır.

"Təəssüf ki, 20 il öncə mən həmsədr olarkən situasiya necə idisə, indi də olduğu statusda qalıb. Bura onu əlavə etmək olar ki, zaman keçdikcə hər şey pisləşib, hər iki tərəfdən insanlar öz mövqelərində möhkəm durublar və heç nəyi dəyişmək istəmirlər. Minsk Qrupu çərçivəsində mən Azərbaycan və Ermənistanı yaxınlaşdırmağa çalışırdım ki, tərəflər arasında şəxsi əlaqələr yaransın, onlar bir-birini daha yaxşı tanısınlar. Hazırda bu iki ölkə arasında belə əlaqələr yoxdur" - deyib Pressel.

Onun sözlərinə görə, hazırda Rusiya konfliktdə əsas oyunçudur ki, bu da çox pis haldır: "Həmçinin də Ukraynadakı olaylar səbəbindən bütün postsovet məkanında situasiya ağırlaşmaqdadır. Əfsus ki, Donbasdakı hadisələr Qarabağ məsələsində hər hansı irəliləyiş olacağına nikbinlik yaratmır". Sabiq həmsədr ixtilafın həllinin Minsk Qrupu formatından və ya həmsədrliyə yeni dövlətlərin gətirilməsindən daha çox münaqişə tərəflərinin iradəsindən asılı olduğunu xüsusi qeyd edib: "Minsk Qrupu sehrli düymə deyil ki, ona basmaqla konflikt nizamlansın və ya hansısa nəticə əldə edilsin. Qarşılıqlı iradə ortada yoxdursa, münaqişə nizamlanmayacaq".

**Keçmiş diplomat habelə Güney Qafqazda vəziyyətin tədricən pisləşdiyini vurğulayıb:** "Təəssüf ki, belədir. Nə eləmək olar bununla? Yalnız onu deyə bilərəm ki, bu - kiçik dövlətlərin problemidir. Onlar fəlakətdən qaçmağı bacarmalıdır. Həllə o zaman nail olmaq mümkündür ki, ilk növbədə ölkə özü dəyişikliklərə hazır olsun. Qarabağ məsələsinə gəlincə, tərəflərdən hər biri 100 faiz haqlı mövqedə olduğunu bəyan edir, heç kim güzəştə getmək istəmir. Nə vaxta kimi belə davam edə bilər? Siz konflikti bələmi həll etmək istəyirsiniz?"

**Rusiyanın mövqeyindən danışan eks-diplomat əmindir ki, Kreml Dağlıq Qarabağ məsələsini yoluna qoymaq istəmir.** "Bu həqiqətən belədir. Əgər Azərbaycan və Ermənistan Sovet İttifaqını bərpa edib onun tərkib hissəsi olmaq istəyirsə, o zaman heç bir həldən söhbət getməyəcək. Çox pis haldır ki, belə tendensiyalar var. Ancaq mən Kremlin yerinə qərar verə bilmərəm" - deyə eks-vasitəçi Moskvanın Qarabağ probleminin həllini necə görməsi ilə bağlı suala cavab verərkən vurğulayıb.

***

Ancaq Rusiyanın Qarabağla bağlı güddüyü hədəflər zatən bəlli. Bu barədə çox danışılıb. Bəs Qərbin özü məsələdə rəsmi Kremldən daha ədaləti mövqe sərgiləyə bilirmi, bilmirsə, buna kim və nə mane olur - Rusiya, yoxsa?..

Çoxillik müşahidələr göstərir ki, Qərb də ədalətli ola bilmir. Ən isti nümunə: ötən ay Riqada keçirilən Avropa Birliyinin (AB) "Şərq Tərəfdaşlığı" sammitinin yekun bəyannaməsində tərəfdaş ölkələrin ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə olunsa da, sənəddə Rusiya kimi Ermənistandan da öz qonşusuna qarşı işğalçılıq hərəkətlərinə son qoyulması tələbi əksini tapmadı. Üstəlik, işğalçı Ermənistan AB-nin "Şərq Tərəfdaşlığı" Proqramının 6 üzvündən biridir.

Absurdluq da ondadır ki, bir "tərəfdaş" dövlət başqa bir tərəfdaş dövlətin ərazisini işğal edib və 25 ildir nəzarətdə saxlayır. Di gəl, Rusiyanın Krımı ilhaq etməsinə görə Moskvaya qarşı bütün sanksiyalar dolağını işə salan Qərb Ermənistana gələndə tamamilə əks siyasət yürüdür, təcavüzkarın başını tumarlayır, Qarabağın separatçı liderlərinin Amerikada, Avropa dövlətlərində sərbəst gəzib-dolaşmasına şərait yaradır, onlara siyasi-maliyyə yardımları göstərir. Görəsən, niyə?

Bax bu suala obyektiv cavab verilməyincə, Qarabağ məsələsində AB və ABŞ-ın Rusiyadan daha obyektiv, daha ədalətli olduğuna kimsə inanmayacaq. Ən azından Azərbaycanda. Demək, Azərbaycanın Qərbə inteqrasiya prosesi də heç vaxt Qərbin umduğu tempdə olmayacaq.

***

Qayıdaq Rusiyanın problemə təsir imkanlarına. Bu imkanları fərqli, nikbin dəyərləndirənlər də var. Məsələn, politoloq Qabil Hüseynliyə görə, Azərbaycan-Rusiya arasında Dağlıq Qarabağ probleminin həlli istiqamətində ciddi danışıqlar gedir və xeyli irəliləyiş də var (axar.az): "Ən azından 7 rayonun geri qaytarılması məsələsində ortaq baxış formalaşıb. Düzdür, prosesdə Minsk Qrupunun həmsədrləri də iştirak edəcək, ancaq əsas məsələ iki ölkə arasındakı razılaşmadan keçir. Sözsüz ki, prezidentlərin Bakı görüşündə məsələnin bu və ya digər məqamlarına toxunulub. Yaxın aylarda - sentyabrdan sonra Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün baş tutacağı gündəmdədir. Görüş zamanı Ermənistan tərəfinin bir növ nəbzi yoxlanılacaq, bununla da baş verən proseslərə İrəvanın reaksiyası aydın surətdə ortaya çıxacaq".

**Moskvanın gec-tez yola gələcəyini və ortaq bir nöqtənin tapılacağını deyən politoloq çox önəmli məqamlara aydınlıq gətirib:** "Putin yaxşı başa düşür ki, ölkəsi arzuolunmaz vəziyyətdədir və yalnız Türkiyə ilə Azərbaycan ona əl uzadıb. Rusiya lideri Azərbaycanla münasibətlərdə tərəqqi əldə edə bilsə, o, bir çox şeyə nail olacaq. Məsələn, hər iki dövlətin birgə maraqlarına toxunulmadan Avropa ilə razılaşdırılmış qaz siyasətini həyata keçirmək mümkün olacaq. Bundan əlavə, Moskva bu gün şimal dəmir və şose yolu dəhlizi üzərində işləyir. Qərb isə Azərbaycandan keçən, Asiya və Avropanı birləşdirən Bakı-Tiflis-Qars qaz dəmir yolu layihəsini başa çatdırmaq üzrədir. Bunun yaratdığı üstünlükləri öz xeyrinə dəyişdirmək üçün Rusiya bir növ Azərbaycandan keçməklə İranın Bəndər-Abad dəniz portunu birləşdirəcək böyük şimal nəqliyyat dəhlizinin işə salınmasını nəzərdə tutur ki, bu da Azərbaycansız mümkün deyil".

**Politoloq onun da bildirib ki, Rusiya bu gün üzünü Azərbaycan və Türkiyəyə çevirsə, daha çox uda, hətta indiyədək itirdiklərinin yerini doldura bilər:** "Moskvanın Azərbaycan və Türkiyənin Avrasiya İttifaqına və Gömrük Birliyinə daxil olması barədə öz istəyini bildirməsi əbəs yerə deyil. Bir sözlə, Kreml Qarabağ probleminin həllində səy göstərməyə, Bakı və Ankara ilə iqtisadi əlaqələr qurmağa məcburdur. Çünki bu, onun da işinə yarayır. Belə olan tərzdə Rusiya həm iqtisadi problemlərini həll etmək imkanı qazana, həm də bu ölkələri birliyə qoşmaqla dünyadan təcridolunma siyasətini bir növ kompensasiya edə bilər".

**Q.Hüseynli Qərbin mövcud sanksiyalarından qurtulmaq üçün Kremlin daha böyük planının olduğunu da açıqlayıb:** "Moskva cənuba can atır, müsəlman dünyası ilə əlaqələri genişləndirmək istəyir, xüsusilə də Dubaya - azad ticarət zonasına çıxmaqla Qərbin sanksiyalarını heçə endirməyi planlaşdırır. Bunun fonunda Dağlıq Qarabağ və yaxud Ermənistanla strateji müttəfiqlik Rusiya üçün elə də mühüm əhəmiyyət kəsb etmir. Çünki Moskva böyük Dubay planı ilə hər iki məsələdən qat-qat çox divident qazanacağını çox yaxşı bilir..."

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015

# Kürdlər Suriya-Türkiyə sərhədləri boyunca strateji bölgəni ələ keçirir

## Ərbil neftinin Aralıq dənizinə birbaşa çıxışını təmin edəcək əfsanəvi plan reallaşmaq ərəfəsində; bölgədə minlərlə insan savaş qurbanlarına çevrilir

**Son 3 gündür Türkiyə-Suriya sərhədlərində insanlıq dramı yaşanır. Türkiyənin Şanlıurfa vilayətinin Akçakale rayonu ilə üzbəüz sərhədin qarşı tərəfində yerləşən Suriyanın Tel Abyad bölgəsində İŞİD və kürd silahlıları arasında toqquşmaların şiddətlənməsi nəticəsində minlərlə insan nicat üçün Türkiyə sərhədlərinə üz tutub.**

Döyüş əməliyyatları artıq Türkiyə sərhədlərinə 1 kilometr məsafəyə yaxınlaşıb. Artıq Tel Abyad şəhərinin kürdlərin əlinə keçdiyi bildirilir.

Ancaq baş verən döyüşlərin ən böyük zərbəsi yenə də dinc insanlara dəyib. Minlərlə insan savaşın ortasında qalaraq nicat yeri olaraq Türkiyəyə qaçıb. Ancaq ilk günlərdə ordu qüvvələri sərhədlərdə təhlükəsizliyi əsas gətirərək sərhəddə bir çox insanları geri qaytarıb. Geri qaytarılanların bir çoxunu sərhədin o tərəfinə gələn İŞİD yaraqlıları təhdid edərək evlərinə dönmələrini tələb ediblər. Ancaq Türkiyə mətbuatının məlumatına görə, İŞİD-in təhdidlərindən sonra əhalinin bir qismi geri qayıtsa da, sərhəddə toplaşanların sayı minlərlə olub. Yalnız bundan sonra Türkiyə Baş Qərargahı sərhəddə yerləşdirilmiş hərbi birləşmələrə sərhəd xəttinə yaxınlaşan İŞİD yaraqlılarına atəş açmaq əmri verib. Eyni zamanda hökumət sərhədə yaxınlaşan suriyalıların ölkə ərazisinə keçidinə icazə verib. Bundan sonra hər gün minlərlə insan sərhədi keçərək Türkiyə ərazisinə daxil olur.

Ehtimal olunur ki, İŞİD-in YPG hücumları qarşısında geri çəkilməsi qruplaşmanı daha da qəddarlaşdıra bilər və bu geriçəkilmə zamanı dinc insanlar zərər görə bilər. Bu səbəbdən də dinc sakinlər savaşın şiddətləndiyi bölgələrdən qaçırlar.



Bu arada məlum olub ki, BMT dünya ölkələrinə çağırış edərək Türkiyəyə sığınan suriyalı qaçqınlar üçün yardım istəyib. BMT baş katibinin sözçüsü Stefane Dujarric Türkiyə və qonşu ölkələr suriyalı qaçqınlarla bağlı ciddi sıxıntılar yaşadığını və bu səbəbdən dünya ölkələrini yardım etməyə çağırdıqlarını deyib. BMT baş katibinin sözçüsü dünya ölkələrinin yardım etməsi və qaçqın qəbul etməsinin lazım olduğunu deyib.

Ancaq bütün bunların fonunda bölgəni araşdıran ekspertlər Suriyanın şimalında güc dəyişikliyinə diqqət çəkir. İŞİD-in bölgədə zəifləməsi və bunun fonunda kürdlərin - YPG silahlılarının daha böyük əraziləri ələ keçirməsi, Kobanidən sonra indi də Tel Abyadı ələ keçirməsini bölgədə hərbi-siyasi vəziyyəti dəyişir. Məsələ burasındadır ki, həm şimali İraqda, həm də Suriyada kürd bölgələrində kürdlər artıq təşəbbüsü ələ alır. Ötən həftə Şimali İraq kürd muxtariyyətinin silahlı qüvvələri peşmərgənin sözçüsü bəyan edib ki, kürdlər artıq onlara məxsus ərazilərin 95 faizini İŞİD-dən təmizləyib.

Oxşar irəliləyiş Suriyanın şimalında kürd bölgələrində müşahidə olunur. Bir neçə ay davam edən Kobani müqavimətindən YPG-nin Qərb ölkələrinin - ABŞ-ın dəstəyi ilə qalib çıxması bölgədə gücləri kürdlərin xeyrinə dəyişib. İndi isə kürdlər daha da güclənərək Suriyanın Türkiyə ilə sərhəddə daha bir strateji ərazisi olan Tel Abyadı ələ keçirir. Bu hadisə, İŞİD-in bölgədən tamamilə çıxarılması bölgədə kürd suverenliyini gücləndirəcək.

Bölgənin kürdlərin əlinə keçməsi strateji olaraq böyük planların reallaşması mənasına gəlir. Çünki bölgənin kürdlərin əlinə keçməsi Suriyada hakimiyyətin dəyişib-dəyişmədiyindən asılı olmayaraq kürd muxtariyyətinin qəbul olunması olacaq və gücə çevriləcək. Paralel olaraq Şimali İraq kürd neftinin birbaşa kürdlərin nəzarəti altındakı bölgələrdən keçərək Aralıq dənizinə çıxması deməkdir. Artıq neçə ildir ki, İraq kürd muxtariyyəti məhz neft satışı ilə bağlı Türkiyədən asılı durumdadır və neft satışı üçün Bağdadla olmasa da *(bu mübahisə illərdir davam edir, hətta bir neçə dəfə müharibə həddinə çatıb - K.)* Ankara ilə həsablaşmağa məcbur idi. İndi isə Suriya-Türkiyə sərhədlərində Aralıq dənizinə qədər böyük bir zolaq faktiki olaraq kürdlərin əlinə keçir və qarşıdakı illərdə bu bölgədə legitim status alacaq Suriya kürdləri İraq kürd neftinin Aralıq dənizinə maneəsiz çıxışı üçün əsas koridoru əldə edəcək. Neftin isə Yaxın Şərqdə qüvvələr nisbətinə necə təsir edəcəyini xüsusi izah etməyə gərək yoxdur.

❑ **KƏNAN**



# PKK-ya qoşulduqları iddia edilən üç azərbaycanlı tələbənin aqibəti necə olacaq?

## PKK-nın Azərbaycanda terror təşkilatı kimi tanınmaması bəzi suallar yaradır

**Ankarada üç azərbaycanlı tələbənin yoxa çıxması barədə xəbərlər yayılıb. Hər üç tələbənin İraqda PKK düşərgəsində olduğu bildirilir. Hətta yayılan xəbərlərdə tələbələrin kimliyi göstərilir. Belə ki, İldırım Bayazit Universitetinin tələbəsi Sənan Güləhmədov, Ankara Universitetinin tələbəsi Mobil və Turqut Özal Universitetinin tələbəsi Məmmədhüseyn adlı şəxslərin yoxa çıxması iddia edilir.**

Bu il iyunun 6-da Youtube sosial şəbəkəsində "anfvideo" tərəfindən "Azeri gençlər PKK saflarında " adı altında özünü azərbaycanlı tələbələr kimi təqdim edən 3 şəxslə video-müsahibədə onlar öz kimlikləri barədə danışırlar. Onlar PKK-ya xas olan geyimdədirlər, çiyinlərində "Kalaşnikov" avtomatı var. Video-müsahibədə gənclər Azərbaycandan olduqlarını, Türkiyə universitetlərində təhsil aldıqlarını və PKK-ya qoşulduqlarını təsdiq edirlər. Özlərini İldırım Bayazit Universitetinin tələbəsi Fərəməz Azəri, Turqut Özal Universitetinin tələbəsi Babək Hakır, Balikesir Universitetinin tələbəsi Azad Mirkan kimi təqdim edirlər. Qeyd edək ki, yayılan videolardakı adlar və soyadlarla video-müsahibədə təqdim olunan adlar və soyadlar uyğun gəlmir. Bütün bunlar videonun həqiqiliyini şübhə altına alır. Ehtimal etmək də olar ki, hər üç şəxs ad və soyadını yanlış təqdim edib və ya özlərinə kod adı (şərti ad) seçiblər.

Azərbaycan və Türkiyə hüquq-mühafizə orqanları məlum video ilə bağlı hələ ki susurlar. Ölkəmizin Türkiyədəki səfirliyi yalnız Sənan Güləhmədovun yoxa çıxmasını təsdiq edib. Digər iki şəxs barəsində isə heç bir məlumat yoxdur.

İndiyə qədər hələ də PKK-nın terror təşkilatı kimi Azərbaycanda tanınmaması məlum hadisədən sonra bəzi sualların meydana çıxmasına səbəb olub. Belə ki, əgər tələbələrin terror təşkilatına qoşulmaları öz təsdiqini taparsa, onlar barəsində görüləcək tədbirlər suallar doğurur. Tələbələr cinayətkar elan olunacaqlar ya yox?

**Hüquqşünas Müzəffər Baxış hesab edir ki, belə hallar cinayət məsuliyyəti yaradır:** "Bu xəbərin dəqiq olduğunu deyə bilmərəm. Amma bildirim ki, bunlar cinayət məsuliyyəti yaradan əməllərdir. Əgər onlar Azərbaycandan kənarda Türkiyə ərazisində qanunla nəzərdə tutulmayan terror qruplaşmasına qoşulublarsa, həmin əməl cinayət sayılır. Qanunvericiliyimizdə də 273-cü maddə cinayət hesab olunur. Onlar hər hansı bir terrorçuluq əməlləri törədirlərsə, həmin əməllər 214-cü maddə ilə də məsuliyyət yaradır. Bunlar təsdiqini taparsa, onlar 14 ildən 20 ilədək yaxud ömürlük azadlıqdan məhrum edilə bilərlər. İstintaq zamanı bunların əməllərində digər cinayət halları da aşkar oluna bilər".

**Hüquqşünas PKK-nın terror təşkilatı kimi Azərbaycanda tanınmaması məsələsinə də aydınlıq gətirdi:** "Azərbaycan tanımasa da, PKK terror təşkilatıdır. Türkiyə terror təşkilatı kimi tanıyır. Əgər Azərbaycan dövləti müəyyən etsə ki, vətəndaşları terror hadisələrinin törədilməsində iştirak edirlər, o zaman dövlətimizin borcudur ki, həmin şəxsləri cinayət məsuliyyətinə cəlb edib cəzalandırsın. İndi Azərbaycan bunu etməyəcəksə, bu başqa mövzunun söhbətidir".

Azərbaycanın aidiyyəti qurumlarının bu məsələyə mövqelərini almağa çalışsaq da, mümkün olmadı.

❑ **Cavanşir ABBASLI**

# "İstintaq gedir..."

## "Atletlər kəndi"ndəki qəza ilə bağlı araşdırma yekunlaşmayıb

**Avropa Oyunlarında iştirak edən idmançıların yerləşdiyi "Atletlər kəndi"ndə baş verən qəzanın videosunun yayılması ciddi qalmaqala səbəb olub. Xatırladaq ki, iyun ayının 11-də, saat 8.30-da "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviça və Luna Pacerə bədən xəsarətləri yetirib.**



İdmançılar dərhal xəstəxanaya yerləşdirilərək onlara bütün zəruri tibbi yardımlar göstərilib. Sonradan isə müalicələrini davam etdirmələri üçün təyyarə ilə Vyana şəhərinə göndəriliblər.

Virtualaz.org saytı məlum qəza videosunun mediaya, dolayısı ilə sosial şəbəkələrə necə çatmasının trayektoriyasını göstərib. Sayt qeyd edib ki, video "News Azerbaijan" kanalında yerləşdirilib. "News Azerbaijan" isə Nəqliyyat Nazirliyinin keçmiş əməkdaşı, həmçinin nəqliyyat nazirinin oğlunun yaxın dostu Elnur Baimova məxsusdur. Amma buna əks olan başqa bir fakt da var. Belə ki avstriyalı idmançıların xəsarət alması ilə nəticələnən yol qəzasının videogörüntüsünü yayan polis əməkdaşı işindən azad olunub. Videonun Nizami RPİ-nin Təhlükəsiz Şəhər Xidmətinin bir əməkdaşı tərəfindən telefona köçürülməklə tanışlarından birinə göndərməsi və onun da videonu sosial şəbəkədə yerləşdirməsi müəyyən olunub. Ciddi xidməti qəbahətə yol vermiş polis əməkdaşı barədə dərhal müvafiq yoxlama aparılıb və o, daxili işlər orqanlarından xaric edilib.

Bu məsələdə adı hallandırılan E.Baimovla əlaqə saxlayıb, mövqe öyrənmək istədik. Elnur bəy daha öncə "Yeni Müsavat"da adının hallandırıldığı yazıda ondan mövqe alınmalı olduğunu xatırlatdı: **"Mənim mövqeyim həmin vaxt soruşulmalı idi. İndi isə mən bu barədə sizə danışmayacam".**

**Nəqliyyat Nazirliyi mətbuat xidmətinin rəhbəri Namiq Həsənov** da bildirdi ki, artıq bu hadisə hüquq-mühafizə orqanları tərəfindən araşdırılır. Müsahibimizin sözlərinə görə, bu mövzuda hər hansı açıqlama, rəy, şərh vermək də onların səlahiyyətindədir: **"Hazırda detallı istintaq araşdırmaları gedir. Yenilik olan kimi KİV-ə məlumat verəcəyik. Hazırda mənim stolumun üstündə bu məsələ ilə bağlı rəsmi məlumat yoxdur".**

❑ **Sevinc TELMANQIZI**



> **“Bu qətl hadisəsi xüsusi amansızlıqla törədilib. Bütöv bir ailə məhv olub, gözüyaşlı qalıb. Qatil də bəllidir, qətlə yetirilənlər də. Altı aydır ki, lüzumsuz istintaqı yekunlaşdırmaq fikrində deyillər”.**

# İki qardaşın qatilini cəzadan yayındırmaq istəyirlər

## Nigar Rəhimova: “Qatil öz cinayət əməlinə don geyindirmək üçün qətli namus üstə törətdiyini deyirdi, halbuki...”

Bu sözləri “Yeni Müsavat”a vəkili Ceyhun Yusifov deyib. O, bu il yanvarın 8-də Qaradağ rayonu, Sahil qəsəbəsində xüsusi amansızlıqla və tamah niyyəti ilə odlu silahla qətlə yetirilən Cavid və Cahid Rəhimovların ailəsinin vəkilidir. Hadisə baş verən gün “Lexus” markalı avtomobilin içində olan Cavid və Cahid Rəhimov qardaşlarına “Standartbank”ın işçisi, 1984-cü il təvəllüdlü Zaur Tərlanov “Vinçester” markalı odlu silahla bir neçə dəfə atəş açmışdı. Qardaşlar maşında dünyalarını dəyişmişdilər.

Qətllə bağlı əvvəlcə müxtəlif versiyalar səsləndirilirdi. Hadisənin qısqanclıq zəminində törədildiyi, qardaşlardan birinin, daha dəqiq desək, Cavid Rəhimovun Zaur Tərlanovun xanımı ilə yaxın əlaqəsi olduğu barədə söz-söhbət dolaşırdı. Sonradan məlum oldu ki, bu fərziyə elə söz-söhbət imiş...

**Vəkil Ceyhun Yusifov deyir ki, qətli törədən şəxs cəmiyyətdə öz üstünlüyünü nümayiş etdirmək üçün belə bir ağır cinayəti törədib. Cinayətdən az müddət əvvəl də Z.Tərlanov öz üstünlüyünü nümayiş etdirərək Sahil qəsəbəsində polis əməkdaşına müqavimət göstərib, ona qarşı da cinayət törədib. Barəsində cinayət işi başlansa da sonda hansısa qaranlıq səbəbdən məsuliyyətdən kənar qalıb. Nəticədə Z.Tərlanov cəzasızlıqdan ruhlanaraq öz çirkin fəaliyyətini davam etdirib və məlum faciəni törədib:** “Əgər hüquq-mühafizə orqanları polis əməkdaşı Eldar Tahirova qarşı törədilmiş cinayətin adekvat cəzasını vermiş olsaydılar, məlum hadisə baş verməzdi. Bu da cəzasızlığın faciəvi sonluğudur. Bu qətl xüsusi amansızlıqla törədilib. Bir qardaşın gözü qarşısında digər qardaş qətlə yetirilib. Qatil əvvəlcə Cavidi vurub. Cahid güllələrdən yayınmaq, qaçmaq istədikdə ona da atəş açıb. Əgər Zaurun Cavidlə hər hansı bir problemi var idisə, Cahidi niyə öldürürdü? Bu adam bütöv bir ailəni məhv edib, gözüyaşlı qoyub. Bu cür amansızlıq edən qatil layiqli cəzasını almalıdır”.

**Vəkilin bildirdiyinə görə, hadisə baş verən gün Rəhimov qardaşları bankdan 6 min 100 manat pul götürüblər. 15-20 dəqiqədən sonra isə bu hadisə baş verib. Qətldən sonra maşında olan pullar da yoxa çıxıb. Bu isə qətlin həm də tamah məqsədilə törədildiyini güman etməyə əsas verir:** “6 aydır istintaq gedir. Öldürən də bəllidir, öldürülənlər də. İstintaqın bu qədər uzadılmasından narazıyıq. Cinayət işi Qaradağ Rayon Prokurorluğunun müstəntiqi Yusif Novruzovun icraatındadır. Ümumiyyətlə, istintaqın gedişindən tam narazıyıq”.

**Mərhum Rəhimovların anası Nigar Rəhimova işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması üçün müvafiq qurumlara müraciət edib.**

“Övladlarımın hər ikisini vətənə layiq şəkildə böyütmüşdüm. İkisi də sakit təbiətli, inanclı idi. Cahidin iki azyaşlı uşağı, Cavidinsə 6 aylıq körpəsi yetim qalıb. Qatil öz cinayət əməlinə don geyindirmək üçün qətli namus üstə törətdiyini deyirdi. Halbuki hadisənin əsl mahiyyəti başqadır. Yaxından tanıdığım Xanım adlı qadın mənə zəng vurub Zaur Tərlanovun onu məcburi olaraq saxladığını, ona işgəncə verdiyini deyərək köməklik etməyimi israrla xahiş etdi. Bu barədə hüquq-mühafizə orqanlarına müraciət etməyi məsləhət gördüm. Xanım isə eyni yalvarışla oğlum Caviddən də bu iztirablardan xilas olmaq üçün kömək istəmişdi. Zaur Xanımın telefonunda bizim nömrələri gördükdən sonra oğlumun ona kömək edəcəyi qənaətinə gələrək bir qrup şəxslə onu vəhşicəsinə döymüşdü. Çox təəssüf ki, oğlum bu barədə hüquq-mühafizə orqanlarına xəbər vermədi. İnanclı olduğuna görə Zaurun bu hərəkətə görə nə vaxtsa peşman olacağını düşünürdü. Amma Zaur daha da vəhşiləşərək oğlumu güdməyə başlayıb, onu öldürmək qərarına gəlib. Nəticədə hər iki oğlumu bir anda həyatdan məhrum edib, onların balalarını yetim qoyub. Bizə ən ağır acı olan övlad acısı yaşadıb. Bir valideyn kimi özümə heç cür təsəlli tapa bilmirəm. İşin istintaqında qeyd olunmuş hallar nəzərə alınmır və qərəzli şəkildə Zaur Tərlanovun vəziyyətini yüngülləşdirmək məqsədilə cinayət işi onun xeyrinə olacaq şəkildə aparılır. Onu da qeyd edim ki, qatil Zaur Tərlanov İlahə adlı şəxslə 10 ilə yaxındır ki, ailə qurub və birgə nikahdan 3 uşağı vardır. Onunda ailəsi və üç uşağı ola - ola Xanım adlı şəxsə işgəncə verməklə öz çirkin niyyətlərinin alətinə çevirmişdi. Zaurun valideynləri yas içində olmağıma baxmayaraq mənə əzab vermək üçün barəmizdə şər-böhtan xarakterli məlumatlar yayır, öz dərdimizi çəkməyə imkan vermirlər” deyə, N.Rəhimova bildirib.

**N.Rəhimova onu da əlavə edib ki, cinayət işinin obyektiv aparılmasına nail olunması üçün ölkə başçısına da müraciət edib.**

❑ E.HÜSEYNOV

# Köçkün yataqxanasında qətl



**Paytaxtda qətl hadisəsi baş verib. APA-nın məlumatına görə, hadisə Xətai rayonu ərazisində, məcburi köçkünlərin məskunlaşdığı yataqxanada qeydə alınıb. Ağdam rayonundan məcburi köçkün olan, 1960-cı il təvəllüdlü Xoştərov Malik Abdulla oğlu aralarında yaranan münaqişə zəminində həmyerlisi, 1958-ci il təvəllüdlü Zahid Əşrəf oğlu Abbasovu bıçaqlayaraq qətlə yetirib.**

Hadisəni törədən M. Xoştərov tutulub.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

# Qadınları fahişəliyə cəlb edən tanınmış prodüserin məhkəməsi başladı



**Bakı Ağır Cinayətlər Məhkəməsində qadınları fahişəliyə cəlb etməkdə təqsirli bilinən prodüser Vəfa Vaqifqızının (Məmmədova) cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib. Lent.az-ın məlumatına görə, hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Məhkəmə baxışı 19-na təyin edilib.**

Qeyd edək ki, tanınmış azərbaycanlı prodüser Vəfa Vaqifqızı (Məmmədova) qadınları fahişəliyə cəlb etməkdə şübhəli bilinərək, ona qarşı Cinayət Məcəlləsinin 144-cü ( insan alveri) maddəsi ilə cinayət işi başlanıb.

Vəfa Vaqifqızı əməkdar artist Nüşabə Ələsgərli, Nazənin, Mənzurə Musayevanın prodüserliyini edib.

# “Əcnəbi turist”in tərifinə möhtaclıq



Samir SARI

**Özüm baxmamışam, görməmişəm, amma dostlar baxıblar, görüblər, danışırlar, yazırlar, agah oluram. Deyirlər, hökumət telekanallarının (əslində burada “hökumət” sözü artıqdır, çünki telekanalların hamısı hökumətindir) reportyorları daraşıblar şəhərin mərkəzi hissəsinə, “əcnəbi ovlayırlar”, turist hərləyirlər.**

Düzdür, “ovlamaq”, “hərləmək” deyəndə bir az pis çıxır, bəd məramlardan xəbər verir, amma onların gördüyü işin feili bundan ibarətdir. Bununla belə, insaf üçün demək lazımdır ki, telereportyorlarımız əllərinə düşən əcnəbiləri incitmir, onlara sataşıb-eləmirlər, eləcə, ölkəmiz, şəhərimiz haqqında təəssüratlarını soruşurlar. Onlar da, təbii ki, tərifləyirlər.

Ona görə tərifləyirlər ki, şəhərin mərkəzində, Fəvvarələr meydanında, dənizkənarı bulvardadırlar. Buralar da, maşallah, Milanın mərkəzinə, Neapolun bulvarına oxşayır, hətta son illər maya qoymuşuq deyə daha səliqəli, təmtəraqlıdır.

Əlbəttə, turistlər Bakının mərkəzindən, oturduqları yerdə maşın yoluyla 3-4 dəqiqəlik məsafədə olan, Səbail rayonunundakı “20-ci sahə” adlanan məkanda yerləşən “Akapen” adlı yaşayış massivində olsalar, orda körpə-körpə uşaqların mazutun, neft gölməçələrinin, palçığın içində. Buruqların arasında oynadığını görsələr, bəlkə də qayıdıb öz ölkələrinə gedəndə küçədə şəffaf nəzir qutuları qoyub, izim üçün ianə-zad toplayarlar - necə ki Nepalda zəlzələ qurbanlarına toplayılar.

Xoşbəxtlikdən, turistlər o cür ürək bulandıran, baş ağrıdan, ayaq sızıldadan yerlərin ünvanını, yol-yolağasını bilmirlər. Əslində heç “Akapen”in yolunu bizim məmurlar da bilmir, yoxsa çoxdan söküb camaatı çölün düzündə qoyardılar.

Bu, heç, bu başqa mövzudur, sosial problemdir. Gələk ölkəmizə gələn əcnəbilərin telereportyorlarımız tərəfində danışdırılmasına.

Bu da vacib məsələdir. Biz xaricilərin bizim haqqımızda nə düşündüklərini, necə deyərlər, təəssüratlarını bilməliyik. Tənqid edərlərsə, səhvlərimizi düzəltməliyik, amma tərifləyərlərsə, düz yolda olduğumuzu bilərək, irəliyə doğru daha əmin addımlarla hərəkət etməliyik.

Hələlik eyzən təriflənirik. Əcnəbilər ağız-ağız verib şəhərimizi tərifləyir, qonaqpərvərliyimizi öyürlər.

İntəhası, deyilənə görə, bu işdə də arada azərbaycanlılığımıza salmağımız olur. Məsələn, dostlar yazır ki, telekanallarda çalışan şəxslərin əksəriyyəti heç də turist deyil, Avropa Oyunları ilə bağlı həyata keçirilən müxtəlif layihələrdə çalışan xarici vətəndaşlardır, çoxdan burdadırlar . Düzdür, onlar da əcnəbidir, qonaqdır, amma bu qonaq bitərəf, neytral qonaq deyil, bir növ bizim büdcə təşkilatlarına çalışanlar, həkimlər, müəllimlər kimidirlər. Yəni onların tərifi bitərəf tərif deyil, sərt desək, adi yalakalıqdır.

Bu xüsusda hərdən kuryoz olaylar da baş verir. “Lider TV” Mingəçevirdə bir cəbrayıllı oğlanı ingilis turist kimi danışdırıb, o zalım oğlu da özünü liverpullu kimi aparıb, xeyli danışıb.

Sosial şəbəkədəki dostlardan biri isə bu barədə böylə yazıb: “Dünən ”Tarqovı"da oturmuşdum, kitab oxuyurdum. Bir də gördüm kimsə mənə nəsə uzatdı. Başımı qaldırdım, gördüm, üstündə Az TV- nin loqosu olan mikrofon. Salamsız-zadsız, iki nəfər oğlan başladı məni rusca sorgu-sual eləməyə: hardan gəlmisiz, Bakı xoşunuza gəldimi, oyunların acılışına baxdınızmı və s. Mən də dedim, Moskvadan gəlmişəm, hər şey möhtəşəmdir. Xeyli təriflədim, nə soruşdular, cavab verdim. Qəfil birinin gözü əlimdəki kitaba sataşdı, gördü üstündə yazılıb: “Tale, Azadlıq və Ruh. OSHO” . Oğlanın üzü nə təhər döndüsə, gözlərini bərəldib bircə bunu dedi: “Dolamısan??”

Əlbəttə, özünü “Moskvadan gəlmiş turist xanım” kimi qələmə verən həmvətənimiz düz eləməyib. Televizyonçular onun bəyaz dərisini, bir az açıq rəngli saçlarını görüb səhv sala bilərdilər, xanım gərək mikrofonu görən kimi, deyəydi, qardaşlar, vallah, mən də buralıyam.

Ən pisi odur ki, bəzilər həvəsə düşüb, zəng vurub deyirlər, televiziyalara “əcnəbi turist” lazımdırsa, necə istəyirlər, danışa bilərik.

Düzdür, Qaradağ rayonunda yaşaya-yaşaya “Monteneqrodan gəlmişəm” demək böyük vicdansızlıq sayıla bilməz, çünki “Monteneqro” elə “Qaradağ” deməkdir, amma nə ehtiyac var axı. Nəyik, kimik, buyuq, əcnəbi bizi özümüzə tərifləsə, nə olacaq, təriflməsə, nə olacaq.

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015

# Bakının yollarının bağlanması meyvələrin qiymətini artırıb

## İqtisadçı ekspert: "Bütün sahələrdə bundan sonra da qiymət artımı gözləniləndir"



**Hər kəs yayın gəlişini səbirsizliklə gözləyirdi ki, mövsümi meyvələr artıq yetişəcək və qiymətləri nisbətən ucuz olacaq. Bir müddət əvvələ qədər bu ucuzlaşma müəyyən qədər müşahidə edilsə də, bu uzun çəkmədi. Hazırda bazarlardakı vəziyyət belə deməyə əsas verir.**

Bazarlarda meyvə bolluğu olsa da, bir həftə əvvələ qədər 2-3 manata satılan gilas indi 3 manat 50 qəpik-5 manat arası, 3 manata satılan ərik 4-5 manata, 1 manat 50 qəpik- 2 manata satılan alça 3 manata, çiyələk 3-5 manat arası, şaftalı 4 manata, alama 2-3 manata, armud 4-5 manata satılırdı. Satıcılardan meyvələrin qiymətini birdən-birə artırmalarının səbəbini soruşduqda onlar bunu əsasən iki amillə izah etdilər. Birincisi, rayonlardan paytaxta meyvələrin gətirilməsi Avropa Oyunları ilə əlaqədar məhdudlaşdırılıb. İlkin səbəb isə bu il məhsuldarlığın azlığıdır.

Qeyd edək ki, meyvələrdəki qiymət artımını yalnız bazarlarda deyil, meyvə-tərəvəz mağazalarında da müşahidə edilir. Ancaq mağazalarda satıcıların bəziləri bir sıra meyvələrin qiymətini sırf turistlərə görə artırdıqlarını deyirdilər. Satıcılardan ölkəmizdə qonaq olan turistlərin daha çox hansı meyvələri aldığını soruşduq. «Nərimanov» metrosu yaxınlığındakı meyvə- tərəvəz mağazasının satıcısı Vüqar Qurbanov turistlərin daha çox gilas aldığını və narla maraqlandığını dedi: **"Turistlər daha çox gilas alırlar. Onlara tanış olmayan meyvələrdən daha çox dadmağa çalışırlar. Bir də narı soruşurlar".**

**İqtisadçı ekspert Samir Əliyev** meyvələrin qiymətinin artmasına bir neçə amilin səbəb olduğunu dedi: "Yay fəsli hələ gəlməsə də artıq meyvələr yetişib. Meyvələrin qiymətinin baha olmasına səbəb isə məhsuldarlığın aşağı olması ilə bağlıdır. Yəni bir sıra meyvələr var ki, onların məhsuldarlığı həddindən artıq aşağıdır. Məsələn, ərik, gilasın məhsuldarlığı aşağıdır. Bir sıra rayonlarda hava şəraitinin əlverişsiz olması məhsuldarlığı aşağı saldı və itkilərə səbəb oldu. Bu gün paytaxtın meyvə-tərəvəz təminatı rayonların hesabına doldurulur. Bilirsiniz ki, mayın axırından başlayaraq Bakıya rayon maşınlarının, xüsusilə də yük maşınlarının daxil olması qadağan edilib və yaxud da ki, məhdudlaşdırılıb. Bu da problem yaradır. Belə ki, artıq fermer, kəndli özü məhsulunu gətirməkdə maraqlı olmur. Məhsulunu hansısa şirkətlərə və yaxud da vasitəçilərə verir. Vasitəçilər də bundan istifadə edərək qiymətləri qaldırır".

**İqtisadçı ekspert Avropa Oyunları ilə bağlı atılmış müəyyən addımların da qiymət artımına səbəb olduğunu bildirdi:** "Düşünürəm ki, Avropa Oyunları ilə bağlı atılmış addımlar, yəni məhdudlaşdırıcı tədbirlər qiymət artımını şərtləndirən amillərdən biridir. Onu da qeyd edim ki, əgər Avropa Oyunları olmasaydı belə qiymət artımı olacaqdı. Düzdür, bu indiki səviyyədə yox, cüzi miqdarda olacaqdı. Devalvasiyadan sonrakı prosesləri nəzərə alsaq, qiymət artımının getdikcə baş verdiyini görərik. Ümumiyyətlə, bütün sahələrdə bundan sonra da qiymət artımı gözləniləndir".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**



# Yanan bina oktyabrda təhvil veriləcək

## Ağalar Vəliyev binada tezalışan materiallardan istifadə edilməyəcəyini açıqlayıb

**Xəbər verdiyimiz kimi, Binəqədi rayonunda yanan binanın təmiri "Azəraqrartikinti" ASC-yə həvalə olunub. ASC-nin rəhbəri, Milli Məclisin deputatı Ağalar Vəliyev hazırda binada gedən təmir işləri ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

A.Vəliyev deyib ki, yanan binanın təmiri üçün nəzərdə tutulan layihə artıq ASC-yə təqdim olunub: "Hazırda binanın üzlük konstruksiyasının söküntüsü tam başa çatıb. Xarici divarda suvaq, daxildə elektrik, santexnika işləri görülür. Daxildə, mənzillərin bəzilərinin içində də hörgü suvaq işi gedir. Layihəni veriblər, binanın dayanıqlılığı normal vəziyyətdədir. 5-ci mərtəbədən yuxarı bəzi kalonlarda xırda bərkitmə işlərinə ehtiyac var. Ümumilikdə bina tam dayanıqlıdır. Bina suvaqlanacaq, yüksək keyfiyyətli boya vurulacaq. Finlyandiya istehsalı olan keyfiyyətli boyadan istifadə ediləcək".

**Deputat binanın təhvil veriləcəyi vaxtı da açıqlayıb:** "Bina oktyabrda təhvil veriləcək, bu müddətdə sakinlər binaya buraxılmayacaq. Bina tam təmirdən sonra sakinlərin istifadəsinə veriləcək".

**A.Vəliyev layihədə binanın yanğın təhlükəsizliyinə də diqqət ayrıldığını söylədi:** "Layihədə bütün bu işlər nəzərdə tutulub. Müşahidə sistemi də, yanğınsöndürmə krantları da qoyulacaq".

**Deputat binada hər hansı bir tezalışan materialdan istifadə edilməyəcəyini də vurğuladı:** "Binanı yüksək keyfiyyətlə təmir etməyi öhdəmizə götürmüşük, binanın daxilindəki təmir işlərindən tutmuş, fasadı, damı yenidən qurulacaq".

Məlumat üçün deyək ki, Ağalar Vəliyev YAP-çı deputatlardandır. Parlamentin İqtisadi siyasət komitəsinin üzvüdür. 1957-ci il təvəllüdlü A.Vəliyev 1996-cı il iyunun 19-da mərhum prezident Heydər Əliyev tərəfindən "Azəraqrartikinti" Dövlət Şirkətinin prezidenti vəzifəsinə irəli çəkilib. 1998-ci ildən isə Ağalar Vəliyev həmin şirkətin bazasında yaradılmış respublika əhəmiyyətli "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində çalışır. 2006-cı ildən dövlət investisiyalarının həcmi artdıqca, onun bölüşdürülməsində hökumət ona etibar etməyə başlayıb. Prezident İlham Əliyevin göstərişi ilə "Azəraqrartikinti" ASC-yə Bakı şəhərində bir sıra mühüm tarixi əhəmiyyət kəsb edən binaların tikintisi, bərpası və yenidən qurulması həvalə edilib. A.Vəliyev prezident İlham Əliyevin 9 aprel 2010-cu il tarixli sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb.

Qeyd edək ki, Bakıda binaların üzlüyünün dəyişdirilməsi, divarın qaşınması, inzibati binaların tikintisi və təmirinin 80-90 faizi məhz bu şirkətə həvalə edilir. Hökumət Evinin və Milli Məclis binasının təmiri, əlavə 13 mərtəbəli yeni korpusun tikintisi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının tikintisi, Azərbaycan Tarixi Muzeyinin binasının yenidənqurulması, Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun, Kimya Problemləri İnstitutunun təmirini A.Vəliyevin rəhbəri olduğu ASC həyata keçirib.

Yada salaq ki, mayın 19-da Bakının Binəqədi rayonunda baş verən yanğın nəticəsində 15 nəfər ölüb, 50-dən çox insan isə yaralanıb. Hadisə nəticəsində bina yararsız vəziyyətə düşüb. Ölkə başçısının sərəncamı ilə binanın təmiri üçün 3 milyon manat vəsait ayrılıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

### Başsağlığı

**Rövşən Quliyev və Kənan Rövşənoğlu**
**Alim Mustafayevin**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə başsağlığı verirlər.**


### Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin-**xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağrılaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



### Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Sabunçu rayonu Şəhər Şossesi, Elşən Mehdiyev küçəsində 3,7 sot torpağın içində 4 otaqlı ev satılır. Ev Koroğlu metrosundan 5 dəqiqəlik yolda, Sabunçu körpüsünün yanında, Bakı Olimpiya stadionunun yaxınlığında yerləşir. Hər şəraiti (qaz-işıq), telefonu, interneti, xüsusi xətlə çəkilmiş daimi şirin suyu, həyətində 10 tonluq su hovuzu var. Evin ümumi sahəsi 120 kv.metrdir. Hamam-tualet evə bitişikdir. Evdən əlavə, həyətdə iki otaqlı yardımçı tikili var. Bir balaca əl gəzdirməklə tikilidən yaşayış məqsədilə də istifadə etmək mümkündür. Həyətdə həmçinin meyvə ağacları var. Qiyməti razılaşma ilə.**
**Telefon: 055 260 69 84.**

**Hyundai Sonata 2007, 10300 usd, probeq 98000 km originaldi, 2400 motor, 172 a.g. , qara, lyuk, kondisioner, ABS, merkezi qapanma, tekerleri tezedi, oz mashinimdi.Tecili satiram.Servis mashinidi. Mashinda problem yoxdu, udar gormeyib.**
**(050)-535-56-25 Eltay.**



### Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 130 (6158) 17 iyun 2015

**Bu il müqəddəs Ramazan ayı iyunun 18-də başlayır. İyunun əvvəlində Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qazılar Şurası toplantı keçirib və Ramazan ayının başlaması ilə bağlı fətva verib. Fətvada bildirilir ki, Miladi təqvimlə iyun ayının 17-si, yəni bu gün orucluğun niyyət gecəsidir.**

# Sabah orucluq başlayır

QMİ-nin tərtib etdiyi cədvələ əsasən, Qədr gecələri Ramazan ayının 18-dən 19-na, 20-dən 21-nə, 22-dən 23-nə və 26-dan 27-nə keçən gecələrə (iyul ayının 5-dən 6-na, 7-dən 8-nə, 9-dan 10-na, 13-dən 14-nə keçən gecə) təsadüf edəcək. Ramazan ayı iyulun 17-də sona çatır, bayram günü, yəni Şəvval ayının 1-i (18 iyul) Fitr bayramıdır.

**Qurani-Kərimin Bəqərə surəsinin 183-cü ayəsində buyurulur:** "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!" Bu ayədən aydın olur ki, oruc bütün təkallahlı dinlərdə ibadət olaraq yerinə yetirilib. O cümlədən İslam dinində oruc tutmaq vacib ibadətlər kateqoriyasına aiddir. Yalnız xüsusi hallarda, səhhət və eləcə də təbii olaraq oruc tutması mümkün olmayanlar istisna olmaqla bütün müsəlmanlara Ramazan ayında oruc tutmaq vacibdir. Bu ayda üzürlü olaraq oruc tuta bilməyənlər sonrakı il ərzində oruc tutmalıdırlar.

**Ramazan ibadət ayıdır. Oruc tutmaqla bağlı Quranda bir sıra ayələr mövcuddur. Bu ayələrdə orucun qaydaları, zamanı və faydaları qeyd olunur.** "(Oruc tutmaq) sayı müəyyən olan (bir ay) günlərdir. (Bu günlərdə) sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidir. Hər kəs könüllü xeyir iş görərsə (həm oruc tutub, həm də fidyə verərsə), bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir!" *(Bəqərə surəsi, ayə 184).*

Ramazan ayı bayramı hicrətin 2-ci ilindən qeyd olunmağa başlayır. İmam Əli (ə) buyurur ki, "Oruc qul ilə Yaradanı arasında bir ibadətdir, Allahdan başqa kimsə onu bilə bilməz".

Oruc tutmaq insanı Allaha daha da yaxınlaşdırır. Bir ay boyunca imanlı müsəlman Allah üçün dan yeri ağarandan axşam vaxtına qədər ac, susuz qalır, eləcə də adi günlərdə edə bildiyi bir sıra gündəlik işlərdən imtina edir. Eyni zamanda oruc tutan insan ac və susuz qalmanı praktiki olaraq yaşayır və ehtiyaclı insanlara qarşı təbii bir mərhəmət hissi yaşayır, ona səbri aşılayır. İslam Peyğəmbəri (s.ə.s) buyurur: "Bu aydakı aclıq və susuzluqla qiyamət gününün aclıq və susuzluğunu yad edin".

## Müqəddəs ayda oruc tutmaq qaydaları və özəl günlər haqda qısa bilgi...




Oruc tutmaq insanı sağlamlaşdırır. Həzrət Məhəmməd (s.ə.s) buyurur: "Oruc tutun ki, sağlam olasınız".

Oruc insanın Allah-Təalanın əmrini yerinə yetirməsi üçün sübh azanından şam azanına qədər orucu pozan 9 əməldən *(yemək-içmək, cinsi yaxınlıq, yalan danışmaq, qatı tozu udmaq, sübh azanına qədər bilərəkdən cənabətli qalmaq, maye ilə imalə etmək, qusmaq (qəsdən özünü qusmağa məcbur etmək)* uzaq durmalıdır. Oruc yalnız ac və ya susuz qalmaq deyil, həm də insanın gündəlik etdiyi bir sıra əməllərdən çəkinməsi, daha diqqətli olması və gününü ibadətə həsr etməsi kimi şərh olunur. Oruc tutan müsəlman axşam gün batan zaman verilən şam azanı ilə orucunu açır. İftar zamanı dua oxunur: "Əllahummə ləkə sumtu və əla rizqikə əftərtu va ələykə təvəkkəltu ya vasiəl-məğfirəti iğfir li". Tərcüməsi belədir: "Ey mehriban Allah! Sənin əmrinlə oruc tutub və Sənin verdiyin halal ruzi ilə iftar edirəm, Sənə təvəkkül edirəm. Ey böyük rəhmət sahibi, mənim günahlarımı bağışlayıb mənə rəhm et!"

İftarı su və ya xurma ilə açmaq tövsiyə olunur. Xüsusən də hazırda Ramazan ayı yay dövrünə düşdüyü üçün oruc müddəti təxminən 17 saat davam edəcək. Bu isə oruc tutanların isti havada su çətinliyi yaşamasına səbəb olacaq. Buna görə də iftar zamanı su və qidaların qəbulunda ehtiyatlı olmaq, həkim və mütəxəssis rəylərinə əməl etmək lazımdır. O cümlədən iftarda birdən-birə çox yeməmək, müəyyən fasilələrlə yüngül qidalarla qidalanmaq gərəkdir.

Ramazan ayının mühüm təqvimlərindən biri də Qədr gecələridir. İslam mənbələrinə görə, Qurani-Kərim müqəddəs Peyğəmbərimizə məhz bu gecədə nazil olub. Odur ki, müsəlmanların hər il Ramazan ayında bu gecədə oyaq qalıb dua etmələri savab əməl sayılır. Mötəbər rəvayətlərə görə, Qədr gecələri (əhya axşamları) mübarək Ramazan ayının 19, 21, 23 və 27-ci gecələridir. Ancaq ümumiyyətlə, bir çox müsəlmanlar Ramazan ayının son 10 gününü oyaq qalaraq ibadətdə keçirirlər.

**Həzrət Məhəmməd Ramazan ayının başlanması ilə bağlı söylədiyi məşhur çıxışda buyurur:** "Ey insanlar! Həqiqətən bu ayda Cənnət qapıları açıqdır. Allahdan qapılarını sizin üçün bağlamamasını diləyin. Bu ayda Cəhənnəm qapıları bağlıdır. Allahdan Cəhənnəm qapılarının sizin üzünüzə açılmamasını diləyin. Bu ayda şeytanlar zəncirlənmiş olarlar. Dua edin ki, Allah onların şərindən sizi uzaq etsin".

Ramazan hədislərdə də buyurulduğu kimi, insanların mənəvi təmizlənmə ayı, "Şeytanın zəncirləndiyi" təqvimdir. Bu ayın özünəməxsus aurası var və cəmiyyətin mənəvi zənginliyini daha da artırır. Ümid və dua edək ki, builki Ramazan ötən illərə nisbətən daha yüksək mənəvi ab-havada keçsin.

❑ **KƏNAN**

# Problemli kreditlərin həcmi daha da artıb

## Banklara ödənilməyən kreditin həcmi 1 milyard 256,6 milyon manatdır...

**Problemli kreditlərin həcmi sürətlə artır. Mərkəzi Bank may ayının 1-nə əsasən əhali tərəfindən banklara ödənilməyən vaxtı keçmiş kreditlərə dair növbəti statistikanı açıqlayıb. Nəticəyə əsasən, banklara ödənilməyən kreditin həcmi 1 milyard 256,6 milyon manat (6,1 faiz) təşkil edib. Müqayisə üçün qeyd edək ki, mart ayında bu rəqəm 1 milyard 213,3 milyon manat (5,9 faiz) təşkil edirdi. Bu, o deməkdir ki, ötən bir ay müddətində vaxtı keçmiş kreditlərin ödənilməsində 43,3 milyon manat həcmində gecikmə yaranıb.**

Ekspertlər bildirirlər ki, problemli kreditlərlə bağlı tədbirlə görülməzsə, bank sistemi çökə bilər. **Ekspert Natiq Cəfərli** musavat.com-a bildirib ki, geri qaytarılması mümkün olmayan kreditlərin həcmi devalvasiyadan əvvəl də artmışdı: "İlin əvvəlində bu rəqəm təqribən 1 milyard manata çatmışdı. Devalvasiyadan sonra dollarla olan kreditlərdə ciddi problemlər yaranacağı gözlənilən idi. Təəssüf ki, nə hökumət, nə Konstitusiya Məhkəməsi bu yöndə doğru-dürüst addım atmadı. Hökumətin bununla bağlı heç bir proqramı olmadı. Banklara tövsiyə olundu ki, dollarla kreditlərin tarixini uzatsınlar, ödənişlərin məbləğində dəyişiklik olmadı. Bunun son nəticəsi olaraq problemli kreditlərin getdikcə artmasını öncədən proqnozlaşdırmaq mümkün idi. Görünən odur ki, Mərkəzi Bankın rəqəmləri də göstərir ki, tendensiya davamlıdır. İlin əvvəlində problemli kreditlərdə 250 milyona yaxına artım var.



Getdikcə bu, sürətlənəcək. Çünki ölkədə iş yerləri ilə bağlı yaranan problem artır. İnvestisiya xərcləri azalır, bir çox sahələrdə ciddi ixtisarlar gedir. Rusiyadan ölkəyə gələn vəsaitin həcmi azalıb. İstehlak kreditlərində Rusiyada yaşayan azərbaycanlıların buradakı ailələrinin payı var idi. Rusiyadan gələn vəsait də indi xeyli dərəcədə azalıb və artıq rəsmi rəqəmlərə görə, rəsmi kanallarla Rusiyadan daxil olan pulun məbləğində azalma var".

**Ekspert Qubad İbadoğlu isə qeyd edib ki, iqtisadiyyatda kredit qoyuluşları aşağı düşür, vaxtı keçmiş borclar da artır:** "Mərkəzi Bankın son açıqlamasına görə, mayın 1-nə ölkə üzrə cəmi kredit qoyuluşları 20 milyard 595 milyon 500 min manat təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 36,8 milyon manat və ya 0,18 faiz azdır. Kredit qoyuluşunda cari ilin mart-aprel aylarındakı müşahidə olunan artımdan sonra may ayında müşahidə olunan azalma işgüzar aktivliyin aşağı düşməsi faktı kimi də qiymətləndirilə bilərdi. Lakın təhlillər göstərir ki, azalmanın baş verməsi əsasən banklarda olan manat qıtlığı səbəbindən manatla yeni kredit xətlərinin açılması ilə bağlıdır. Bu tendensiya bu ilin yanvarından başlamış və fevral devalvasiyasından sonra daha da sürətlənib. Belə ki, yanvar ayının əvvəlinə olan vəziyyətlə müqayisədə mayın əvvəlində manatla olan kredit qoyuluşları 1 milyard 543 milyon 400 min manat azalıb. Kredit qoyuluşlarının azalması ilə yanaşı vaxtı keçmiş borcların da artması bankların kredit portfelini idarəetmə riskinin yüksəlməsinin göstəricidir. Bu ilin mayın 1-nə vaxtı keçmiş kreditlərin cəmi kreditlərdə payı 2013-cü ilin mart ayından sonra ən yüksək səviyyədə - 6,1 faiz olub. Həmin tarixə qeydə alınan vaxtı keçmiş kreditlərin valyutalar üzrə təhlili göstərir ki, problemli kreditlərin çox hissəsi manatla olan kreditləşmədə, az hissəsi isə xarici valyuta ilə olan kreditlərdə qeydə alınıb. Bununla yanaşı, vaxtı keçmiş kreditlərin kredit qoyuluşlarının müddəti üzrə təhlili də maraqlı nəticələr təqdim edir. Belə ki, manatla qısamüddətli kredit qoyuluşları üzrə vaxtı keçmiş kreditlərin payı 13,4 faiz, xarici valyuta ilə vaxtı keçmiş kreditlərin ümumi yekunda payı 7,4 faiz qeydə alınıb. Göründüyü kimi, ümumiyyətlə qısamüddətli kredit qoyuluşları üzrə bu göstərici orta səviyyədən xeyli yuxarıdır. Deməli, vaxtı keçmiş kreditlər əsasən istehlak kreditləşməsində müşahidə olunur. Bu isə o deməkdir ki, vaxtında kreditini qaytara bilməyən vətəndaşların sayı durmadan artır. Hesab edirəm ki, bu indikator həm də ölkədə sosial vəziyyətin ağırlaşmasının göstəricisi sayıla bilər. Təəssüflər olsun ki, banklara olan borclarına tərkibində şübhəli və ümidsiz kreditlərin payı açıqlanmadığından biz vəziyyəti tam qiymətləndirə bilmirik. Lakin aydın xətt üzrə müşahidə olunan daha bir təhlükəli tendensiya da mövcuddur ki, getdikcə şübhəli borclar ümidsiz borclara çevrilməkdədir".

❑ **Röya RƏFİYEVA**

# YENİ MÜSAVAT

## Son səhifə

N 130 (6158) 17 iyun 2015





## Cəhənnəm istiləri gəlir

Yaxın gələcəkdə insanların üzləşəcəyi ən ciddi problemlərin başında gələcək qlobal istiləşməyə dair yeni məlumatlar yayılıb. NASA-dakı mütəxəssislər 2099-cu ilin iyul ayında Günəşin batdığı yerlərdə istilik minimum -10 dərəcə olduğu halda, gündüzlər 45 dərəcə və daha artıq olacağını proqnozlaşdırıblar. Uzun müddətdir fərqli iqlim modelləri üzərində işləyən NASA 21 fərqli modelləri dəyərləndirərək 100 illik müddət ərzində bizi gözləyən təxmini istiliyin dərəcəsini ölçüb. Xəritədə 2015-ci ilin əvvəlində 400 parça olan karbon qazı səviyyəsi milyonda 900 parçaya yüksəlmiş vəziyyətdədir. NASA mütəxəssislərindən biri Ellen Stofan qlobal istilərin sel və quraqlığa necə təsir edəcəyini və hava axınlarını necə dəyişdirəcəyi mövzusunda fikir əldə etməyə çalışdığını bildirib. Stofan texnoloji və yeni üsullarla sayəsində dünyanı kosmosdan daha yaxşı müşahidə edə bildiklərini və bunun sayəsində gələcəkdə qlobal istiləşməylə mübarizə etməmizi təmin edəcək məlumatlar yığdıqlarını söyləyib.

NASA qlobal istiləşmənin təsirlərini 1950-2100-cu illər arasında meydana gətirdiyi iqlim modellərinə görə qiymətləndirdiklərini və 11 terabaytdan çox məlumatın istifadə edildiyini açıqlayıb. Bu NEX məlumatlar Amazon veb xidmətləri vasitəsilə cəmiyyətə də təqdim edilir. OpenNEX proqramı vasitəsilə istəyən hər kəs müxtəlif iqlim modelləri üzərində araşdırma edə bilir.

# Sakit okeanı keçən ilk qadın

Amerikada yaşayan Sonya Bumsten adlı qadın kürək çəkərək Sakit okeanı keçməklə tarixə düşmək istəsə də pis hava şəraiti və qayıqda yaranan problemlər onun rekord qırmasına əngəl yaradıb. Yaponiyanın Çoşi şəhərindən yola çıxan qadın 250 kilometr yol qət etdikdən sonra SOS siqnalı göndərib. Səyahət zamanı qayığının da sükanı xarab olub. Buna bənzər bir neçə problemin yaranması qadının xəyallarının alt-üst olmasına səbəb olub.



# 3 ildir gözünü yummur



3 il əvvəl üzünü dartdırmaq üçün əməliyyat etdirən Davn Kint adlı ingilis qadın yanlış müalicə nəticəsində gözlərini yuma bilmir. Əməliyyatdan qısa müddət sonra göz əzələləri daha da gərginləşən qadın gözünü yuma bilmədiyi zaman yenidən klinikaya müraciət edib. Kintin həkimləri əməliyyatın yanlış edildiyini qəbul etsə də, qadını yenidən müalicə etməyə razılaşmayıblar. Həkimlər yatarkən belə gözlərini yuma bilməyən qadının görmə qabiliyyətini itirə biləcəyini deyirlər.

## Həqiqəti google-də öyrənənlər



İnternet vasitəsilə tanış olub ailə həyatı quranlar və ya sevgili olmaq istəyən gənclər bir-biriləri haqqında daha çox məlumat əldə etmək üçün google axtarış sisteminə müraciət edirlər. Məlumatlara görə, son zamanlarda internetdə tanış olduqları şəxslər haqda araşdırma aparanlar bu cür həqiqətlər öyrəniblər:

- Evlidir, uşaqları var;
- Dediyindən daha yaşlıdır;
- Estetik əməliyyat keçirib;
- Tanımadığı insanlara açıq-saçıq şəkillər göndərməyi sevir;
- Köhnə sevgilisindən vaz keçə bilmir;
- Bir çox cinayət əməli var;
- Məşhur maşın oğrusudur;
- Məşhur aktyordur.



## Uşaqları planşetə öyrədin...

London Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, yeni doğulmuş uşaqların beynini planşetlər kitablardan daha tez oyadır. Yeni araşdırmalar nəticəsində məlum olub ki, telefonların və ya planşetlərin ekranına baxmaq əvvəllər deyildiyi kimi uşaqların zehninə zərər vermir. Əksinə, beyinlərini oyadır. Alimlərin sözlərinə görə, yeni doğulmuş uşaqlar kitablara baxarkən daha çox səhifələrin səslərinə diqqət edirlər. Lakin onlar üçün gözlə görülən şeylər və hərəkətlər daha önəmlidir. Bunun üçün uşaqları daha çox texnologiya vasitələrinə yönəltmək lazımdır.




**QOÇ** - Axşam saat 18-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı saatlarda isə ehtiyatlı olmalı, əsas vaxtınızı evdə keçirməlisiniz.

**BUĞA** - Bu gün istirahətə tamamilə ara verməli, işgüzarlığınızı artırmalısınız. Yeni işlərə başlamaq haqqında sövdələşmələr aparın. Bu addım böyük perspektivlərdən xəbər verir.

**ƏKİZLƏR** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**XƏRÇƏNG** - Daxili süstlüyünüz təxminən saat 14-ə qədər davam edə bilər. Bu səbəbdən bəzi məsələlərdə ehtiyatlı olmalısınız. Günortadan sonra nüfuzlu və etibarlı adamlarla görüşməyiniz vacibdir.

**ŞİR** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**QIZ** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz də gözlənilir.

**ƏQRƏB** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**OXATAN** - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamlara fikir verməyin. Gələcək işlərinizi indidən planlaşdırın. Yeri gəlmişkən, bu gün uzaq yola da çıxmamalısınız.

**OĞLAQ** - Qarşınızda dayanan bu təqvim hamıdan çox sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**SUTÖKƏN** - Qarşınızda kifayət qədər uğurlu bir tarix durub. Xüsusilə nahara qədər baş verəcək hər bir prosesdən yararlanmalısınız. Çox istəyinizə çatacaqsınız, yalnız pulla bağlı riskli sövdələşmələri təxirə salın.

**BALIQLAR** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Əvəzində isə başınıza yeni ideya və perspektivli fikirlər gələcək. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Utancaqlara şad xəbər



Probiotik qidalar bağırsaq florasını dəyişdirərək insan psixologiyası üzərində müsbət təsirlər yaradır. Qatıq, turşu və tünd (bitter) şokolad utancaqlıq və digər sosial fobiyaların öhdəsindən gəlməyə yardımçı olur. ABŞ Merilend Universitetində aparılan araşdırma nəticəsində məlum olub. Bu nəticəyə görə, tərkibində faydalı bakteriyalar olan probiotik qidalar bağırsaq florasını dəyişdirərək insan psixologiyası üzərində müsbət təsirlər yaradır. Alimlər bu cür qidaları qəbul etməyənlərdə utancaqlıq və s. ictimai fobiyaların digər insanlardan çox olduğunu müəyyən ediblər.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300